www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14-15 aprel 2018-ci il Şənbə № 80 (6969) Qiyməti 60 qəpik

**Xəbər**

## Lənkəranda 42 yaşlı qadını ərinin sevgilisi qətlə yetirdi

yazısı səh.2-də

**Gündəm**

### Müxalifətin intensivləşən mitinqləri - vasitə hədəfi həmişə doğrultmur



**Elçin Mirzəbəyli:** "Seçkiyə qatılmayanların etiraz aksiyası hakimiyyətin marağındadır"

yazısı səh.7-də

### İlham Əliyevin siyasətə gətirdiyi yeni təşəkkür ənənəsi

yazısı səh.5-də

### Avropa İttifaqı seçki ilə bağlı pozitiv bəyanat yaydı

yazısı səh.3-də

### Nazirlər Kabineti nə zaman istefaya gedəcək?

yazısı səh.9-da

### Böyük sülh sazişi naminə diplomatik həmlə: zamanı çatmadımı...

yazısı səh.11-də

### Aqrar məhsulların ixracı 36 faiz artıb

yazısı səh.12-də

### Suriyada İran-ABŞ toqquşması baş verə bilər

yazısı səh.10-da

### III dünya müharibəsi ilə bağlı xəbərdarlıq - "Qida ehtiyatınızı hazırlayın"

yazısı səh.13-də

### Yerli istehsalı xarici xammaldan necə xilas edək...

yazısı səh.12-də

### İŞİD-i kim yaradıb - iddialar, ehtimallar və gerçəkliklər

yazısı səh.10-da

### Trampın Kim Çen İnlə "möhtəşəm görüş"ünün pərdəarxası məqamları

yazısı səh.13-də

# İRƏVAN VƏ MOSKVA ABŞ-IN ORTAQ HƏDƏFİNDƏ - AĞ EV "QAYKALARI" BƏRKİDİR

ABŞ-dan Gürcüstanın ərazi bütövlüyünə mühüm dəstək - bəs Azərbaycan?; **erməni ekspertlər isə xəbərdarlıq edir:** "Vəziyyət xeyrimizə deyil, Ermənistanın əsas işi Rusiyaya görə sanksiyalar altına düşməkdən yayınmaq olmalıdır..."




yazısı səh.8-də

# ATƏT DTİHB-in missiyasının tərkibindəki ekspert qurumun saxtakarlığını ifşa etdi

Prinsipial müşahidəçilər seçki ərəfəsində missiyadan uzaqlaşdırıldı; **Vüqar Əhmədov:** "ATƏT-in seçki hesabatında Xədicə İsmayılın, Emin Millinin rolu olub"

yazısı səh.3-də



*Pənah Hüseyn:*

### "Azərbaycan cəmiyyəti, o cümlədən iqtidar yeni mərhələyə daxil olub"

yazısı səh.5-də



*Samir Əliyev:*

### "Neft nə qədər ki, 40 dollarlıq psixoloji həddə düşməyib, dollara olan tələbatın ödənilməsində problem olmayacaq"

yazısı səh.4-də



### Azay Quliyevdən ATƏT-in hesabatına sərt reaksiya

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 79 (6968) 13 aprel 2018






## Daşkəsəndə Qələbə mitinq-konserti

**Aprelin 12-də İlham Əliyevin seçkilərində böyük üstünlüklə qələbəsi münasibətilə Daşkəsən rayonunda möhtəşəm bayram konsert-mitinqi keçirilib. Mitinqdə 8000 nəfərdən çox rayon sakini iştirak edib.**

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev «Hər zaman, hər yerdə Sizinləyik, cənab Prezident!», «İlhamla irəli», «Xalqın səsi-cənab İlham Əliyevin qələbəsidir», «Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidentidir» şüarları səsləndirərək qələbə bayramı münasibətilə mitinq iştirakçılarını təbrik edib.

Əhəd Abıyev çıxış edərək deyib: "Mən bütün daşkəsənliləri və xüsusilə Yeni Azərbaycan Partiyasının çoxsaylı üzvlərini bu möhtəşəm qələbə münasibətilə ürəkdən təbrik edirəm, müstəqil Azərbaycanımızın inkişafı naminə yorulmaz fəaliyyətinizdə, başda ölkə Rəhbərimiz olmaqla, hər birinizə gələcəkdə yeni-yeni uğurlar, qələbələr arzulayıram! Prezident cənab İlham Əliyevə eşq olsun!

Qələbəmiz bir daha mübarək olsun!"

Sonda seçkidə fəal iştirak edən bir qrup çağırışçı gənclər musiqi sədaları altında hərbi xidmətə yola salınıb.

## Müşahidə missiyasının nümayəndələrinə XİN-dən qəti etiraz

**ATƏT-in Demokratik təsisatlar və İnsan Hüquqları Bürosu, ATƏT Parlament Assambleyası və Avropa Şurası Parlament Assambleyasının Müşahidə Missiyasının 11 aprel tarixində keçirilmiş prezident seçkilərinin nəticələri ilə əlaqədar hazırladıqları ilkin hesabatı ədalətli və obyektiv hesab etmirik".**

Bunu APA-ya açıqlamasında XİN-in Mətbuat Xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

Onun sözlərinə görə, müşahidə missiyasının nümayəndələri Xarici İşlər Nazirliyində qəbul olunub və məsələ ilə əlaqədar Azərbaycan tərəfinin qəti etirazı onlara çatdırılıb.

## Hava yenidən soyuyur

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti hava şəraitinin dəyişəcəyi barədə xəbərdarlıq edib. Departamentdən APA-ya verilən məlumata görə, aprelin 13-ü qərb rayonlarından başlayaraq aprelin 16-dək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir.**

Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-7 dərəcə aşağı enəcək. Çaylarda sululuğun artacağı ehtimal olunur.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Ukrayna MDB-dən çıxır

**Ukrayna Müstəqil Dövlətlər Birliyindən (MDB) birdəfəlik uzaqlaşmağa hazırlaşır.**

APA-nın TASS-a istinadən verdiyi xəbərə görə, Ukrayna prezidenti Pyotr Poroşenko hökumətə tapşırıb ki, ölkənin Müstəqil Dövlətlər Birliyindən (MDB) tam çıxması üçün müvafiq təkliflər hazırlasın.

"Ukraynanın heç vaxt, elə indi də MDB üzvü olmadığını, eləcə də təşkilatın Rusiya işğalını qınamaqdan imtina etməsini nəzərə alaraq, xahiş edərdim ki, biz hökumətlə birlikdə MDB-nin Nizamnamə orqanlarında iştirakımıza rəsmən son qoymaq üçün mövqe işləyib hazırlayaq. MDB-nin Minskdəki müvafiq institutlarında olan Ukrayna nümayəndəlikləri də tam olaraq bağlanmalıdır", - deyə P. Poroşenko Kiyev təhlükəsizik



forumunda çıxışında bildirib.

P.Poroşenko yaxın vaxtlarda Rusiya ilə 1997-ci ildə imzalanmış dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilənin bəzi müddəalarının birtərəfli qaydada ləğvi barədə Ali Radaya qanun layihəsi təqdim edəcəyini də açıqlayıb. Eyni zamanda o qeyd edib ki, müqaviləni tam ləğv etmək olmaz, çünki orada Ukraynanın xeyrinə müddəalar var. Söhbət tərəflərin bir-birinin ərazi bütövlüyünə və suverenliyinə hörmət etməsi barədə müddəalardan gedir.

Müstəqil Dövlətlər Birliyinin (MDB) İcraiyyə Komitəsi isə Ukraynanın qurumdan çıxması ilə bağlı rəsmi bildiriş almadığını bəyan edib.

Qeyd edək ki, Ukrayna MDB-nin Nizamnaməsini heç vaxt ratifikasiya etməyib.



## Novruz Məmmədovdan sual: "Bəs demokratiya harada qaldı?"

**"Əvvəlcədən hazırlanmış materialı ilkin nəticələr kimi yaymaq tərəfdaş ölkənin xalqının iradəsinə və seçiminə hörmətsizlikdir".**

Modern.az-ın məlumatına görə, bunu Azərbaycan prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri Novruz Məmmədov "Twitter"dəki səhifəsində yazıb.

N.Məmmədov qeyd edib: Beynəlxalq Seçki Müşahidə Missiyasının prezident seçkiləri ilə bağlı bəyanatı ilə tanış oldum. Avropada bəzi qurumların tərəfdaşları ilə əməkdaşlığı hansı cür başa düşdüyünü yaxşı bildiyim üçün bəyanatın məhz indiki variantda verilməsi məni təəccübləndirmədi. Hər şeydən əvvəl bu qədər şişirtmək heç düzgün deyil, bu necə beynəlxalq müşahidə missiyası olur? Birincisi, Seçki Müşahidə Missiyasının (nə üçün özünü beynəlxalq adlandırır, başa düşmək olmur) özünün tərkibindəkilərin böyük hissəsi seçki haqqında müsbət fikirdədir.

Bəs demokratiya harada qaldı? İkincisi, seçkini müşahidə edənlərdən - Müşahidə Missiyasından dəfələrlə çoxsaylı və nüfuzuna görə heç də aşağı olmayan digər missiyaları saymamaq (başqa tərəfləri saymamaq bu qurumlarda artıq pis vərdişə çevrilib) və əvvəlcədən hazırlanmış materialı ilkin nəticələr haqqında bəyanat kimi yaymaq (bu da köhnə qaydadır) tərəfdaş ölkənin seçicilərinə və xalqına, onların iradəsinə və seçiminə hörmətsizlikdir. Əgər Müşahidə Missiyasının bu nümayəndələri hesab edirlərsə ki, bu mövqe milyonlarla seçici tərəfindən qəbul edilər, onlar tam yanılırlar. Belə qərəzli, həqiqətdən uzaq qərar qəbul etməzdən əvvəl bir az da olsa düşünmək yaxşı olardı".



## 5 nəfərin ölümünə görə 10 il həbs

**Lənkəran Ağır Məhkəməsində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törətməkdə təqsirləndirilən Zakir Əliyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Vəkil Əli Hüseynovun APA-ya verdiyi xəbərə görə, hakim Elşad Əliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, Z. Əliyev 10 il müddətinə azadlıqdan məhrum edilib.

Vəkil məhkəmənin hökmünün ədalətli olmadığı üçün Apelyasiya Məhkəməsinə müraciət edəcəyini bildirib.

Qeyd edək ki, 2017-ci il sentyabrın 19-da saat 20 radələrində Salyan rayonunun Sarvan kəndi ərazisində Saatlı rayon sakini Babək Hüseynovun idarə etdiyi "VAZ-2106" və Cəlilabad rayon sakini Zakir Əliyevin idarə etdiyi "Mercedes" markalı avtomobillər toqquşub. Nəticədə B.Hüseynovun sərnişinləri - Salyan rayon sakinləri Arzu Əhmədova, Gilas Əhmədova, Sevinc Baxşıyeva, Vəfa Əhmədova və daha bir nəfər hadisə yerində ölüb, Z.Əliyev və 2 sərnişin xəstəxanaya yerləşdiriliblər.



## Azərbaycan İrana elektrik enerjisi verəcək

**"Son illər Azərbaycanda həyata keçirilən kompleks tədbirlər nəticəsində enerji sistemin infrastrukturu köklü şəkildə dəyişib, yeni generasiya gücləri əldə edilib".**

Bunu "APA-Economics"ə açıqlamasında "Azərenerji" ASC-nin İctimaiyyətlə Əlaqələr və Mətbuat Xidmətinin rəisi Yəhya Babanlı bildirib. Onun sözlərinə görə, görülən tədbirlər nəticəsində bu gün ölkənin enerji təhlükəsizliyi təmin edilib: "Görülən tədbirlər elektrik enerjisi ilə ölkənin 100% fasiləsiz, dayanıqlı və etibarlı şəkildə təmin etməklə yanaşı, bunun mübadiləninin və alqı-satqısının həyata keçirməyə də geniş imkanlar açıb".

Y. Babanlı bildirib ki, bu sazişin imzalanması ölkənin enerji sisteminə, o cümlədən də cənub bölgəsinin enerjisi təminatında heç bir problem yaratmayacaq: "Bu il istifadəyə veriləcək 400 MVt-lıq Elektrik Stansiyasının işə düşməsi, o cümlədən 2400 MVt-dan yuxarı yeni generasiya güclərinin əldə edilməsi bunu deməyə əsas verir. Son illər istər elektrik stansiyalarının, istərsə də digər enerji mənbələrindən əldə olunan elektrik enerjisi potensialı Azərbaycanın qeyd edilən həcmdə İrana elektrik enerjisi satışının həyata keçirilməsinə imkan verir. Bu razılıq İran prezidentinin Azərbaycana səfəri ərəfəsində əldə edilib".

## Tramp: "Suriyanı tez də vura bilərik, gec də"



**ABŞ prezidenti Donald Tramp Suriyaya hücumla bağlı yeni açıqlama yayıb. APA-nın xəbərinə görə, Tramp özünün "Twitter" səhifəsində əməliyyatın vaxtının həlləlik müəyyənləşmədiyini yazıb:**

"Suriyanı çox tezliklə də vura bilərik, gec də vura bilərik. Nə vaxt hücum edəcəyimizi heç vaxt deməmişəm. Mənim rəhbərliyimdə ABŞ Suriyadan İŞİD-in çıxarılması üçün böyük işlər görüb. Haqqımız olan "Təşəkkür edirik, Amerika!" ifadəsini isə eşitmirik".

## Milli Şuranın mitinqinə icazə verildi

**Bakı Şəhər İcra Hakimiyyəti Milli Şurasının aprelin 14-nə təyin etdiyi mitinqlə bağlı məktubu cavablandırıb və müsbət cavab verib.**

Modern.az xəbər verir ki, muxalifətin aprelin 14-də saat 15.00-dan 17.00-dək Yasamal rayonunda yerləşən "Məhsul" İdman Sağlamlıq Mərkəzinin stadionunda mitinq keçirməsinə etiraz edilməyib.

YENİ MÜSAVAT
N 79 (6968) 13 aprel 2018

**Aprelin 12-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurası aprelin 11-də ölkəmizdə keçirilmiş prezident seçkiləri ilə bağlı kütləvi informasiya vasitələrində (KİV) apardığı monitorinqin nəticələrini açıqlayıb. Təşkil olunan mətbuat konfransında KİV rəhbərləri, jurnalistlər iştirak ediblər.**

# Mətbuat Şurası seçki monitorinqinin nəticələrini açıqladı

## Əflatun Amaşov: "Seçkiqabağı namizədlərlə bağlı cəmi 11 mənfi material yayımlanıb"

Musavat.com xəbər verir ki, tədbirdə açılış nitqini söyləyən **Mətbuat Şurasının sədri Əflatun Amaşov** öncə prezidentliyə namizədlər haqqında məlumat verib. Daha sonra isə o bildirib ki, əsas məqsədləri KİV-lərdə gedən təbliğat xarakterli materialların təhlilini aparmaq olub:

"Monitorinq aparılmış təhlillər göstərir ki, KİV-lər bu kampaniyada iştirak etməkdə maraqlı olublar. KİV-lər bütün namizədlərə bərabər yanaşıblar. Heç bir mətbu orqan hansısa prezidentliyə namizədi aşağılamayıb. Namizədlərin tərəfsizliyi qorunub. Bu isə ötən illərə baxdıqda müsbət bir addımdır. Monitorinq zamanı bəzi KİV-lərdə gizli siyasi təşviqat aparılıb. Ümumilikdə prezident seçkiləri zamanı KIV-lərdə 1051 material yayımlanıb. Onların 11-i mənfi məlumatdır ki, bunlar da hesabatda qeyd olunub. Seçkiqabağı namizədlərlə bağlı cəmi 11 mənfi material yayımlanıb. TV kanallarda heç bir namizədə qarşı mənfi material yayımlanmayıb".




Əflatun Amaşov qeyd edib ki, 11 aprel prezident seçkilərində iştirak edən namizədlərdən 4-ü Milli Məclisin üzvüdür:

"6 televiziya kanalında namizədlər haqqında yayımlar verilib. Təbliğat materialları digər qəzet və elektron xəbər portallarında yayımlanıb. KİV-lərdə aparılan monitorinqlərdə yayımlanan məlumatlarda heç bir nöqsana rast gəlinməyib. Mediada heç bir namizədə etikadan kənar münasibət qeydə alınmayıb. Heç bir namizədə qərəz göstərilməyib. Namizədlərin tərəfsizliyi qorunub. Bəzi KİV orqanlarında fərqli yanaşma qeydə alınıb. Ümumi götürsək, media orqanları prezident seçkilərində uğurlu işə imza atıblar.

Sosial şəbəkələrdə etik qaydaların pozulması qeydə alınıb. Məsələn, hansısa media orqanı yazdığı xəbəri sosial şəbəkədə paylaşıb və həmin məlumatın altında etik normalara cavab verməyən şərhlər yazılıb. Bu, monitorinqə qeydə alınmayıb. Çünki bu, sosial şəbəkəyə aid məsələdir.

Birmənalı olaraq bəyan edirəm ki, televiziyalarda namizədlərə bitərəf münasibət göstərilib və heç bir neqativ hala rast gəlinməyib.

Mətbuay Şurası seçki günü MSK ilə birgə öz işini davam etdirib. Şura seçki məntəqələrində jurnalistlərin fəaliyyətinə yaradılan şəraitlə tanış olub. Mətbuat Şurasında seçki günü qaynar xətt yaradılıb. Nöqsanlarla bağlı yalnız 1 müraciət olunub və yaranan problem də həll edilib. Mətbuat Şurasının İdarə Heyətinin üzvləri həmçinin müəyyən ərazilərdə seçki dairələrində olublar".

❑ **Əli RAİS,**
**Foto Elçin Əkbərov**



# Hacı Cavad məscidinin yeni binasının açılışı olub

**Aprelin 12-də Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışı olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verdi.

Azərbaycan prezidentinin tapşırığı ilə Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsi 1 ünvanında Hacı Cavad məscidinin yeni binasının tikintisinə 2017-ci il iyulun 2-də başlanılmışdı. Prezident İlham Əliyev məscidin yeni binasının tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə maraqlanıb, görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib.

Hacı Cavad məscidinin yeni binası 1200 kvadratmetr ərazini əhatə edir. Yalnız ibadət zalının sahəsi 400 kvadratmetrə yaxındır. Milli memarlıq üslubunda və zövqlə inşa olunan ibadət evinin günbəzinin hündürlüyü 18, minarənin hündürlüyü isə 33,7 metrdir. Məscidin daxilində xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. Məscidin müqəddəs Qurani-Kərimdən surələr yazılmış divar və sütunları isə Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq ornamentlərinin nadir nümunələrindən istifadə olunaraq dini rəmzlərlə bəzədilib.

Eyni vaxtda 500-dən çox insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub. Döşəməyə xüsusi olaraq Hacı Cavad məscidi üçün toxunan yeni "Namazgah" xalı döşənib. Məscidin daxilində müasir texnologiyalarla işləyən havalandırma sistemləri quraşdırılıb.

# ATƏT-in qərəzli seçki hesabatını ictimaiyyət və media mənsubları ciddi etirazla qarşıladı

## Bakıda ATƏT-in müşahidə missiyasının mətbuat konfransında qalmaqal; ATƏT DTİHB-nin müşahidə missiyasının mətbuat konfransı yarımçıq dayandırıldı

**Azərbaycanda keçirilmiş prezident seçkilərinin nəticələri ilə bağlı ATƏT-in Demokratik Təsistalar və İnsan Haqları Bürosunun müşahidə missiyası aprelin 12-də saat 14.30-da Bakıda mətbuat konfransı keçirib. Mətbuat konfransına ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosundan seçkini müşahidə missiyasının rəhbəri Corien Jonker, ATƏT-in qısamüddətli müşahidə missiyasının rəhbəri və xüsusi koordinatoru Nilza de Sena, Avropa Şurası Parlament Assambleyasının müşahidə missiyasının rəhbəri Viorel Bardea qatılıblar.**

ATƏT DTHİB-nin seçkini müşahidə missiyasının rəhbəri **Corien Jonkerin** deməsinə görə, 350 müşahidəçi onlara müxtəlif problemlər, ciddi qanun pozuntuları, şəffaflığın olmaması barədə xəbər verib. O, məntəqələrin 12 faizində pozuntu qeydə alındığını, bunun da çox pis göstərici olduğunu deyib.

"Topa bülletenlərin atılması müşahidə olunub. Pozuntuların qarşısının alınması üçün lazımi addım atılmayıb", - deyən Jonker əlavə edib ki, fundamental hüquq və azadlılar seçkinin başlıca şərtidir. Ancaq seçki prosesində hüquq və azadlıqlar ciddi şəkildə məhdudlaşdırılıb ki, bu da ATƏT öhdəliklərinə ziddir.

**Müşahidə missisiyasının üzvü Nilza de Sena** bütün qiymətləndirmələri özü apardığını, çox insanları dinlədiyini söyləyib: "Prezident Əliyevlə də görüşdüm, parlamentdə də oldum, müxtəlif fikirləri olan başqa insanlarla da görüşmüşəm, media təmsilçiləri, QHT nümayəndələri ilə də. Özüm üçün ölkə ilə bağlı mənzərəni yaratdım. Dediklərimizi təhlil edən zaman nə demək istədiyimizi başa düşəcəksiniz. Rəqabətliliyin olmamasına gəlincə, Ronaldo portuqaliyalıdır, dünyanın ən yaxşısıdır. Onun ədalətli şəkildə rəqabət aparmaq imkanı var. Demokratiyanın da müəyyən şərtləri var. Müstəqil media mövcud olmalıdır. Siz inkişafa doğru getməlisiniz. Dünyada mükəmməl ölkə yoxdur. Amma bərabər seçki olmalıdır. Bərabər səsvermə hamı üçün yaradılmalı, effektiv iştirak təmin olunmalıdır. Biz hesabatda nələrisə qeyd ediriksə, bu, faktları diqqətinizə çatdırırıq".

**C.Jonker** isə deyib ki, Azərbaycana hökumətin dəvətilə gəliblər. 350 müşahidəçiləri olub.



"Bəyanatda əksini tapan fikirlər bizim subyektiv fikirlərimiz deyil. Biz, sadəcə, faktlara baxıb müəyyən qənaətlərə gəlirik. Rəqabətlilik mühiti, media azadlığı məsələsinə qayıtmaq istəyirəm. Rəsmi təbliğat dövründə media vaxtının 48.81 faizini dövlətin fəaliyyətinə, 27.40 faizini prezidentə həsr edib. Boykota çağıran qüvvələrlə bağlı neqativ işıqlandırma aparılıb. Bərabər mühit yaradılmayıb", - deyə o, sözlərinə əlavə edib ("Azadliq"radiosu).

Missiyanın üzvləri seçkidə baş vermiş pozuntular barədə danışmağa başlayan kimi bir qrup jurnalist yerindən qalxaraq kəskin etirazını bildirib. Müşahidə Missiyasının ilkin rəyində qutulara bülletenlərin topa ilə atılması, eyni şəxslərin bir neçə dəfə səs verməsi haqda fikirlərin əks olunduğu barədə missiya rəhbərinin açıqlamaları xüsusilə kəskin reaksiya doğurub.

Etiraz edən şəxslər "Yalan danışmağa son qoyun!", "Bu, doğru deyil!" deyərək missiya üzvlərinin oturduqları tribunaya tərəf gediblər. Yüksək tonlarda danışan jurnalistlər missiyanın üzvlərindən hesabatlarını dəyişməyi tələb ediblər. Buna cavab olaraq ATƏT nümayəndələri mətbuat konfransını dayandırıblar və zalı tərk ediblər.

Müəyyən müddətdən sonra onlar yerlərinə qayıdaraq ilkin rəylərini oxuyaraq mətbuat konfransının bitdiyini bildiriblər və əlavə ediblər ki, monitorinqin nəticələri çap olunmuş variantda mövcuddur və istənilən şəxs onunla tanış ola bilər.

**"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə** ATƏT müşahidəçilərinin ilkin rəyinə sərt etiraz edib: "Hesab edirəm ki, sizin fikirlərinizin əksəriyyəti xalqın iradəsinə ziddir. Bu fikirlər tam subyektivdir. Siz Azərbaycan əleyhinə olan qüvvələrin fikirlərini çatdırmaq üçün gəlmisiz. Tam şəffaf, hətta Avropanın bir çox ölkələri üçün nümunə olacaq seçki keçirilib. Təəssüf edirəm sizin qərəzli, ikili standartlı fikirlərinizə görə. Ermənistan parlamentində adamları qətlə yetirirlər. Deyirsiz, seçkidə rəqabət mühiti olmayıb. Halbuki Sərdar Cəlaloğlu iştirak edib".

**Etiraza qalxan "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev** isə müşahidə missiyasını hesabatı öncədən hazır gətirməkdə ittiham edib: "Ya hazır gətirmisiz, ya da anti-Azərbaycan qüvvələrinin fikirləridir. Orada sizin dediyiniz ölkə sivilizasiyadan uzaq ölkədi. Azərbaycan isə hüquqi dövlətdir. Mətbuata heç bir maneə olmayıb. Beynəlxalq təşkilatlar özləri etiraf edir bunu. Biz tam sərbəst şəkildə seçkini izləmişik. Azərbaycan xalqının hissiyatı ilə, əsəbləri ilə oynamayın".

❑ **Etìbar SEYÌDAĞA,**
**"Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 79 (6968) 13 aprel 2018



# Vətənə "ayı xidməti"

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

**Bunu da gördük. Berlində Avropa Azərbaycanlıları Konqresinin (AAK) keçirdiyi və milli həmrəylik niyyəti güdən aksiyaya qarşı Avropada yaşayan bir qrup başqa azərbaycanlı anti-aksiya düzənləyib. Özü də eyni coğrafi məkanda, eyni ünvanda - Almaniyadakı Azərbaycan səfirliyi önündə.**

Bildiyimiz qədər, AAK-ın tədbirində konkret siyasətçiyə və ya hakimiyyətə ünvanlı hər hansı dəstək ifadə olunmayıb. Başlıca hədəf azərbaycançılıq ideyasının, Azərbaycanın təbliği olub. Bunu qaldırılan plakatlardan da görmək mümkündür. Amma o biri tərəf - əfsus ki, söhbət bu dəfə ermənilərdən yox, "özümüzünkülər"dən gedir - aksiyanı və onun məqsədini gözdən salmaq üçün əllərindən gələni edib, üstəlik, elementar siyasi mədəniyyət və davranış normalarını gözləmədən.

Yaxşı, etirazı başa düşdük, sözün var söz de, daha təhqir niyə?

Doğru sözdür, belə etirazlar Ermənistan səfirlikləri qarşısında keçirilməlidir. O Ermənistanda ki, 20 ildir hakimiyyəti qəsb eləmiş Sərkisyanın "Qarabağ klanı" cəmi bir neçə gün sonra parlamentli idarəçiliyə keçid bəhanəsi ilə hakim rejimin ömrünü daha 5 il uzadacaq: aprelin 17-də Serj Sərkisyan rəsmən üçüncü müddətə ölkənin rəhbəri olacaq. Və o "Qarabağ klanı" ki, problemin həllində əsas əngəl olaraq qalır. Əvvəlcə buna qarşı çıx, Ermənistan səfirliyi önündə aksiya keçir, mənfur düşməni faş və rəzil elə, biz də deyək, "bərəkallah!"

Yeri gəlmişkən, faktdır ki, Avropadakı erməni lobbisi Sərkisyan rejiminin, Sərkisyanın özünün qatı əleyhdarıdır. Ancaq biz bircə dəfə də olsun, "qoca qitə"yə səfər zamanı və ya ayrı vaxtda Xocalı hərbi canisi Sərkisyan əleyhinə ermənilərin etiraz aksiyasını görmədik - o ki ola Ermənistan səfirliyi qarşısında. Müqayisə bəlkə də yersizdir, amma yenə ermənilərin böyük ideya, hədəf uğrunda, əlləxüsus dar macalda birləşmə bacarığını qeyd etməyə bilmirsən. İdeya, hədəf isə - Azərbaycanı dövlət olaraq dünya xəritəsindən silməyə hesablanıb. Bunu bilməyən azərbaycanlı varmı görəsən?..

Dövlət də ailə kimidir. Ailənin söz-söhbəti bayıra çıxarılmaz. Burda - Azərbaycanda nə edirsən-elə, etiraz bildir, ancaq Azərbaycandan kənarda, Avropada mənfur erməniləri sevindirmək, onların millət, dövlət olaraq haqqımızda daha betər rəy yaratmasına vəsilə olmaq, düşmən çörəyi üzərinə yağ sürtmək məntiqə, dəftər-kitaba sığmır, yediyin qaba tüpürmək anlamı verir.

Bildik, insan haqları heç bir ölkənin daxili işi deyil - o cümlədən də Ermənistanın. Yəni universal dəyərdir. Fəqət, insan haqqını qorumaq istəyirsənsə, öncə həmin insanın mənsub olduğu millətin - Azərbaycan xalqının haqqını gözləmək zorundasan. Zira, millət yoxsa, insan və onun haqqı da yoxdur! Azərbaycan xalqının haqqı isə 30 ildir pozulur - özü də təməl haqlardan dəm vuran "demokratiya paytaxtları"nın ikili standart yanaşması, işğalçı Ermənistana himayəsi üzündən. O zaman "Roma papasından artıq katolikmi olmaq" iddiası ilə yaşamağa dəyirmi?

Sözümüzün canı həm də odur ki, Avropada, Qərbdə, xüsusən də erməni lobbisinin güclü olduğu ölkələrdə Azərbaycan səfirliyi azərbaycanlıları birləşdirən məkana çevrilməidir, nəinki onları ayıran. Çünki bizi Avropada daha yaxşı görür, müşahidə edir, dəyər verirlər. Belədə haqqımızda daha tez qənaət və təsəvvür yaranır - təəssüf ki, mənfi planda: "Bu nə biçim millət?", "Bunlar bir-birindən nə istəyir?", - deyə sual edirlər. "Bunların başqa dərdi yoxmu?" sorurlar.

Var. Tibdə belə bir anlayış mövcuddur: orqanizmdə böyük ağrı balaca ağrını unutdurur. Bizim ən böyük ağrımız bəlli - Qarabağ, erməni işğalı. Amma xaricdə azərbaycanlıların azərbaycanlılar əleyhinə aksiyası ən böyük ağrımızı azaldırmı, işğalın aradan qalxmasını yaxınlaşdırırmı?

Keşkə, "böyük ağrı"nı qoyub, "balaca ağrıları" qabartmaq istəyən anti-aksiyaçılar öncə bu barədə düşünəydilər. Onların ən böyük dərdi gerçəkdənmi ölkə, millət, dövlət haqda avropalılarda yaxşı rəy yaratmaqdır, yoxsa?.. Bu, onlara nə qazandırır? Necə deyərlər, belə aksiyaların düşmən və işğalçı ermənilərdən savayı "əcələ faydası" varmı?

Bir şey dəqiqdir: bu, hətta Vətənə xidmətdirsə belə, "ayı xidməti"dir", "qaş düzəltdiyin yerdə göz çıxarmaqdır"...

# Prezident İlham Əliyevə təbrik zəngləri

## Dövlət başçıları Azərbaycan rəhbərinə nələr deyib?

**11 aprel prezident seçkisinin nəticələri bəlli olduqdan sonra müxtəlif dövlətlərin başçıları tərəfindən Azərbaycan prezidenti İlham Əliyevə təbriklər gəlməkdədir.**







İlham Əliyevi ilk təbrik edən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan olub. Ərdoğan aprelin 11-də İlham Əliyevə telefonla zəng edib. APA-nın məlumatına görə, Türkiyə prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, Azərbaycan xalqının rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb.

**Rusiya prezidenti Vladimir Putin** isə aprelin 12-də İlham Əliyevə zəng edib və yenidən Azərbaycan prezidenti seçilməsi münasibətilə təbrik edib. Azərbaycan prezidentinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, V.Putin prezident İlham Əliyevi seçkilərdə inamlı qələbəsi münasibətilə təbrik edib, ona Azərbaycan xalqının firavanlığı və ölkəmizin inkişafı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

**İran İslam Respublikasının prezidenti Həsən Ruhani** də İlham Əliyevi yenidən prezident seçilməsi münasibətilə təbrik edib. Ruhani təbrikində deyib ki, bu seçim Azərbaycan xalqının İlham Əliyev hökumətinin həyata keçirdiyi uğurlu siyasəti dəstəklədiyini və onun rəhbərliyi ilə bu inkişafın davam etdirilməsində maraqlı olduqlarını göstərir.

**Belarus prezidenti Aleksandr Lukaşenko** isə seçkilərdə yenidən qələbə qazanması münasibətilə prezident İlham Əliyevə zəng edib.

**Özbəkistan prezidenti Şavkat Mirziyoyev** isə İlham Əliyevə telefonla zəng edib. Ş. Mirziyoyev İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

**Ukrayna prezidenti Pyotr Poroşenko** da Azərbaycan prezidenti İlham Əliyevi təbrik edib.

Təbrik mesajı P.Poroşenkonun "Twitter" səhifəsində yer alıb: "İlham Əliyevi prezident seçkilərində inamlı qələbə münasibətilə səmimi təbrik edirəm! Əminəm ki, Ukrayna-Azərbaycan strateji tərəfdaşlığı daha möhkəm olacaq".

P.Poroşenko azərbaycanlı həmkarı ilə görüşünü səbirsizliklə gözlədiyini vurğulayıb.

**Moldova prezidenti İqor Dodon** İlham Əliyevə təbrik ünvanlayıb. Təbrikdə İ.Dodon seçkilərdəki qələbənin Azərbaycan xalqının İlham Əliyevin ölkənin inkişafı, sabitlik və cəmiyyətdə harmoniya istiqamətində siyasətinə inamını nümayiş etdirdiyini bildirib.

**Macarıstanın baş naziri Viktor Orban** isə İlham Əliyevə telefonla zəng edib. V. Orban Azərbaycan prezidentini seçkidə qələbəsi münasibətilə təbrik edib, ona Azərbaycan xalqının rifahı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

**Daha bir təbrik Tacikistan prezidenti Emomali Rahmondan** gəlib. Rahmon Azərbaycan prezidenti İlham Əliyevi yenidən bu posta seçilməsi ilə əlaqədar təbrik edib.

**Gürcüstan prezidenti Giorgi Marqvelaşvilinin** təbrikində isə deyilir: "Dostum İlham Əliyevi yenidən Azərbaycan Respublikasının prezidenti seçilməsi münasibətilə təbrik edirəm. İnanıram ki, Gürcüstan və Azərbaycan arasında əsrlər boyu mövcud olan dostluq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da davam edəcək".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

# DTX sədrinin "xarici təhlükə" açıqlamasına reaksiya

## Arzu Nağıyev: "Radikalizmlə bağlı təhdid nömrə birdir"

**Milli Təhlükəsizlik Xidmətinin (DTX) rəhbəri Mədət Quliyev aprel 11-də prezident seçkilərində səs verdikdən sonra jurnalistlərə açıqlamasında bir sıra diqqətçəkən fikirlər səsləndirib. O, Azərbaycandan kənarda ölkəmizə qarşı siyasətin aparıldığının anonslarını verib.**




Sitat: "Azərbaycanın daxilində heç bir təhlükə yoxdur. Yalnız ölkədən kənarda Azərbaycana qarşı siyasət aparanlar var. Bunun da qarşısı ölkə rəhbərliyi tərəfindən alınır".

M.Quliyevin bu açıqlamalarından sonra xaricdən Azərbaycan əleyhinə hansı istiqamətlərdə siyasətin aparıldığı barədə müxtəlif mövqelər meydana çıxıb. Azərbaycana bir sıra ölkələr, eləcə də terror təşkilatları tərəfindən təhdid hallarının daha yüksək olduğu qənaətləri çoxluq təşkil edir.

**Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev** hər bir dövlət və onun milli təhlükəsizliyi üçün təhdidlərin daim olduğunu söylədi: "Bu təhdidləri bir neçə kateqoriyaya bölə bilərik. Bu, iqtisadi, siyasi təhdidlər ola bilər. Dini qruplaşmalar tərəfindən təhdidlər olur. Bu gün məhz məsələdir ki, daxildə əməliyyat şəraitinə tam nəzarət olunduğu üçün Azərbaycan təhdidlərin çoxundan sığortalanıb. Təbii fəlakətlərlə bağlı təhdidlər istisna olur. Buna da hazırlıqlı olan xüsusi xidmət və bunu həyata keçirən icra orqanları var. Azərbaycan üçün erməni terroru məsələsi daim gündəmdədir. Çünki biz müharibə vəziyyətindəyik. Ermənistanın ərazisində, Dağlıq Qarabağda olan müəyyən qruplaşmalar var ki, öz maliyyə mənbələri vasitəsilə terror aktı və digər təhlükələr törədə bilərlər. Xaricdən maliyyələşən belə qüvvələr də az deyil. Əsas məqamlardan biri də ondan ibarətdir ki, bu gün Xəzər dənizində o qədər də sakitlik hökm sürmür. Bildiyiniz kimi, Rusiya donanmasını Həştərxandan köçürür və burada da müəyyən təhlükəsizlik məsələsi var. Rusiyanın cənub sərhədində anti-terror əməliyyatları aparılır. Rusiyanın subyektlərində sakitlik bərqərar olmur. Bu da Azərbaycana müəyyən qədər təhlükə ixrac edə bilər. Cənub sərhədlərimizdə, yəni çox da uzaq olmayan yerlərdə müharibələr gedir. İstənilən an hər hansı bir qruplaşma üzvlərinin sərhəd tərəfindən keçmə ehtimalları var. Bu məsələləri daxildə tənzimləmək demək olar mümkün olub. Hüquq-mühafizə orqanları həm əməliyyat şəraitinə nəzarət edə bilir, həm də öz funksiyalarını yerinə yetirirlər. Düşünürəm ki, xaricdən bu gün Azərbaycanla bağlı ən böyük təhdid terrorla bağlı ola bilər. Qərbin, müəyyən qurumların, eləcə də "dini qurumların" inhisarında olan qüvvələr hər hansı təhlükəsizliklə bağlı təhdidlər edə bilərlər. Buna görə də belə bəyanatlar səslənir ki, əsas problem xarici sərhədlərimizdən ola bilər. Bu gün Azərbaycan balanslı siyasət yeritdiyi üçün hər hansı bir sanksiyaların tətbiq olunacağı ilə bağlı təhdidlər mövcud deyil. Çünki Azərbaycanın hər bir dövlətlə ikili münasibətləri var və heç bir hərbi blokda birləşməyib. Hərbi bir blokun marağında olan ikitərəfli əlaqələrimiz var, həm Azərbaycan, həm də o biri dövlət üçün. NATO və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını götürsək, bu gün elə də qlobal bir problemimiz yoxdur. Ola bilər ki, müəyyən regional problemimiz var. Çünki Ermənistan ərazisində hərbi bazalar var, NATO isə Rusiyanın sərhədi Türkiyədən keçir. Türkiyə isə bizim tərəfdaşdır. Yalnız belə məsələlər ola bilər. Ümumi götürəndə radikalizmlə bağlı təhdid nömrə birdir. Son vaxtlar Azərbaycanın apardığı daxili və xarici siyasətdə mühüm bir amil var, biz NATO standartlarına uyğun şəkildə qüvvələrimizi səfərbər etməyə çalışırıq. Bu istiqamətdə də mühüm addımlar atılır. Eyni zamanda heç bloklara qoşulmayan dövlətlərlə, yəni Qoşulmama Hərəkatı ilə 120-yə yaxın dövlətlə münasibətimiz var. Düşünürəm ki, bu istiqamətdə aparılan siyasət çox mühüm əhəmiyyət kəsb edir, həm Qoşulmama Hərəkatı ilə, həm də supergüclərlə müəyyən problemlərin həllində. Məlum məsələsidir ki, hər hansı bir təhdidin qarşısını almaq, yaxud hər hansı bir müharibədə qalib gəlmək üçün tək səngərlərdə deyil, diplomatik, dövlət səviyyəsində mübarizə aparılır".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 79 (6968) 13 aprel 2018

# "Bəzi nazirlər gedəcək"

## Mehman Əliyev: "Əgər hakimiyyətin icra sistemində dəyişikliklər baş versə, onda parlament seçkiləri məsələsi ortaya çıxa bilər"

**Favoriti əvvəlcədən bəlli olan 11 aprel prezident seçkisi arxada qaldı, hakim partiyanın namizədi növbəti, bu dəfə yeddi illik dönəm üçün prezident seçildi. Ancaq ölkədə çoxlarını düşündürən məsələ seçkidən sonra nələrin olacağı ilə bağlıdır. Turan İnformasiya Agentliyinin direktoru "Yeni Müsavat"ın bununla bağlı suallarını cavablandırıb.**

*- Mehman bəy, Azərbaycanda keçirilən 11 aprel prezident seçkisindən sonra nələr baş verəcək, ölkənin birinci şəxsi hansı addımları atacaq, komandada əsaslı dəyişikliklər olacaqmı? Bu barədə nə deyə bilərsiniz?*

- Seçkidən sonra həm institusional, həm kadr islahatları getməlidir. Mən bunu gözləyirəm. Ümumiyyətlə, getdikcə cəmiyyətdə də münasibətlərdə dəyişikliklər olmalıdır, həm iqtisadi, həm də siyasi zəmində. Yetişib artıq...

*- Nə mənada?*

- O mənada ki, seçkilərin özünün də tez, çevik şəkildə keçirilməsi onu göstərir ki, tələsirlər. Artıq İlham Əliyev özü də tələsir. Onu heç kəs tələsdirmirdi. Yəni o, seçkini payızda da normal şəkildə keçirə bilərdi. Ancaq o da başa düşür ki, artıq prosesləri sürətləndirmək lazımdır.

*- Söhbət islahatlardan gedir?*

- Bəli.

*- Yeni komanda necə, olacaqmı?*

- Məncə, hə. Açığı, mən fərdlər səviyyəsində yeni komandada kimlərin olacağını bilmirəm. Amma yeni komandanın formalaşması aktualdır, lazımdır.

*- Nazirlər Kabinetinin ləğv olunması realdır?*

- İnanmıram ki, ləğv olunsun. Amma rəhbərliyinin dəyişməsi qaçılmazdır.

*- Baş nazir də?*

- Baş nazir, baş nazirin müavinləri və s. Bəzi nazirlər gedəcək.

*- Deməli, "Yol Xəritəsi"nin icrasına başlanılacaq?*

- Əlbəttə ki. Əslində seçkidən qabaq bəzi işlər görülürdü, demək olmaz ki, heç nə etmirdilər. Amma getdikcə daha da sürətli olacaq.

*- Maraqlısı budur ki, əvvəlki dövrlərdən fərqli olaraq, beynəlxalq səviyyədə budəfəki seçkiyə çox sakit reaksiya verildi. Bu, nəyin əlamətidir?*

- Mən beynəlxalq nümayəndələrin özlərinə də demişəm ki, siz bu seçkiləri legitimləşdirməyə gəlmisiniz. Bu proses, yeni beynəlxalq ictimaiyyətin, ilk növbədə ABŞ və Avropa Birliyinin susqun müşahidəsi onu göstər ki, seçkidən öncə razılaşma var. Onlar bilirlər ki, İlham Əliyev haraya gedir və neyləyəcək və bu proseslər razılaşdırılmış formadadır. Yəni seçki prosesi texniki məsələdir, formaldır. Əsas proseslər seçkidən sonrakılardır. ABŞ-ın səfiri də seçkidən qabaq ölkəmizi tərk edib. Bu, onu göstərir ki, amerikanlar bu prosesdə iştirak etmirlər, kənarlaşıblar. İkincisi, mən hesab edirəm ki, yaxın bir neçə ay ərzində də ABŞ-ın burada səfiri olmayacaq. Bu da onu göstərir bu müddətdə hakimiyyət, ilk növbədə İlham Əliyev haraya və necə getdiyini nümayiş etdirməlidir. Ondan da çox şey asılı olacaq ki, gələcək münasibətlər nəyin üstündə qurulacaq və tərəflə hansı səpkidə əməkdaşlıq edəcək, yaxud etməyəcəklər.

*- ATƏT missiyasını çıxmaq şərtilə, digər qurumların mövqeyi hakimiyyət üçün qənaətbəxş oldu...*

- Aydındır ki, Azərbaycanda demokratik mühit, söz azadlığı yoxdur, insan hüquqları tapdanır. Belə olan halda hansısa seçkinin normal keçirilməsi mümkün deyil. Əslində namizədlərə, personalara baxsaq, bu, onu göstərir ki, onların seçkidə iştirakı formal xarakter daşıyırdı və bu, seçki görüntüsü idi.

*- Amma ənənəvi müxalifətin ən azı xalqa sözünü demək imkanı var idi, lakin bundan istifadə etməyib boykot yolunu tutdu. Həm də parlament seçkiləri üçün siyasi kapital toplaya bilərdilər...*

- İş ondadır ki, onlar formal olaraq kənardan müşahidə edirdilər və fikir bildirirdilər. Bu, öz yerində. Amma fakt budur ki, müxalifət də seçkiyə qatılmadı.

*- Bu, normal idi?*

- Müxalifətçilik nöqteyi-nəzərdən normal deyildi. Amma proses nöqteyi-nəzərdən, məncə, normal idi. O mənada ki, Qərbin də, müxalifətin də yekdil münasibəti var idi.

*- Amma heç Qərb müxalifətin seçkidən imtinasını təqdir etmədi.*

- Söhbət ondan gedir ki, İlham Əliyevə seçkilərin texniki keçirilməsi üçün şərait yaradıldı, bu, reallıqdır. Seçki sırf texniki xarakter, görüntü xarakteri daşıyırdı. Burada seçki prosesi yox idi. Orda rəqabət var idimi?

*- Ənənəvi müxalifət seçkidə iştirak etsəydi, mənzərə dəyişə bilməzdimi?*

- Əslində onlar elə bir vəziyyət yaratdılar ki, heç bir rəqabət, seçki prosesi olmadı, seçki texniki xarakter daşıdı.

*- Mehman bəy, Ermənistan tam şəkildə parlament üsul-idarəsinə keçdi. Mümkündürmü ki, Azərbaycanda da bu prosesə start verilsin?*

- Hələ tezdir. Bizdə hələ buna hazırlıq yoxdur. Ermənistanda real müxalifət parlament sistemində təmsil olunurdu. Cəmiyyətdə müxalifət və hakimiyyət bölgüsü var idi. Özü də bu bölgü təkcə siyasi meydanda yox, biznes meydanında da, informasiya məkanında da var idi. Yeni Ermənistanın real müxalifəti sferalarda az və ya çox olmaqla, müəyyən formada təmsil olunurdu. Bizdə müxalifətin biznes dəstəyi yoxdur. Orda isə biznesmenlər var ki, deyir, mən Ter-Petrosyanı dəstəkləyirəm, pul da verirəm, partiyasının da üzvüyəm. Azərbaycanda bu, mümkün deyil. İnformasiya məkanını götürəndə, onlarda telekanallar və internet resursları da var, qarşı tərəfin mövqeyini yayır. Həmçinin azad, sərbəst toplaşmaq, piket, mitinq keçirmək problemi yoxdur.

*- Bizdə də müxalifətin mitinqlərinə icazə verilir. Elə sabah növbəti mitinq olacaq...*

- Yox, mitinqlərə hərdən icazə verilir. Siz sonuncu dəfə hansı tədbirdə iştirak etmisiniz ki, orada müstəqil QHT-lər, ya siyasi partiyalar tədbir keçirib. Harda olub? Bir dənə zalı imkan vermirlər ki, camaat toplaşsın, tədbir keçirsin. "Məhsul"da mitinq keçirməyə icazə verirlər, bu, başqa məsələdir. Amma gündəlik toplaşmaq, nə isə keçirmək, mübarizə eləmək, bunlar yoxdur. Son illərdə İctimai Televiziyada müxalifət liderlərinin, müstəqil ictimai xadimlərin sifətlərini görmüsünüzmü?

*- Ola bilərmi ki, buna doğru hakimiyyət açılım elan etsin?*

- Belə tez olmayacaq, amma ona doğru gedəcək.



**"Biz nə qədər çox islahatlara getsək, dəyişsək, Qarabağda da daha çox uğur qazana bilərik, bunsuz mümkün deyil"**

*- Bu seçki ərəfəsində ortaya radikal, söyüşcül müxalifət çıxdı və ənənəvi deyilən müxalifətin heç də radikal olmadığı qənaəti çoxlarında formalaşdı, aparıcı siyasi partiyaların davranışları, siyasi mədəniyyəti hətta təqdir olundu. Bundan sonra həmin qüvvələrə tribuna veriləcəyini güman etmək olar?*

- Bilirsiniz, kimə harada yer verməyi heç kəs müəyyənləşdirmir, onu proses müəyyənləşdirir. Əgər hakimiyyət bu tipli məsələlərdən, yəni şərləmək və s. prosesdən əl çəksə, onda o biri tərəflər də bunu etməyəcək. Bu ənənəni hakimiyyət gətirib meydana və vaxtilə stimullaşdırırdı. İndi vəziyyət dəyişib.

*- Bəzi namizədlər seçki təbliğatı dövründə əvəzlənəcək məmurlarla bağlı anons edirdilər. Seçkiyə bir gün qalmış prezident İlham Əliyev də "keçmiş xidmətlər nəzərə alınmayacaq, cəzalandırılacaq" deyə, sərt xəbərdarlıq etdi. Bu xəbərdarlıq sizə nə deyir?*

- Əslində birinci dəfə deyil ki, xəbərdarlıq edir.

*- Amma situasiya başqadır.*

- Bəli, situasiya başqadır. Amma mən bu bəyanatlara o qədər də fikir vermirəm. Problem və böhran var. Böhrandan çıxış yolu bu münasibətləri, şəxsləri, çox şeyi dəyişməkdən keçir.

*- Necə bilirsiniz, Şərq Tərəfdaşlıq Müqaviləsi də masadadır?*

- Danışıqlar gedəcək. Məncə, o məsələni də həll etmək lazımdır. Orda bir problem var, Azərbaycan Ümumdünya Ticarət Təşkilatının üzvü deyil. Cürbəcür bəhanələr gətirirlər ki, biz bazarı qoruyuruq və s. Ancaq əslində bizim bazar xarici bazardan asılıdır. Demək olar ki, biz ölkəyə hər şeyi xaricdən gətiririk. Ona görə də burada bazarın qorunmasından heç cür söhbət gedə bilməz. Əgər kimsə Azərbaycanda pomidoru 4 manatdan satmaq istəyirsə və Avropa, ya Türkiyə gətirib 1 manata satacaqsa, mən istehlakçı kimi istərdim 1 manata alım. İkincisi, biz soyuducu, televizor, maşın götürsək, Azərbaycanda heç nə istehsal etmirik, hamısını xaricdən gətiririk.

*- Maşın istehsal olunur...*

- Bir növ maşın yığırlar. Amma bağışla, mən niyə o maşını almalıyam? Yenə də orda kiminsə maraqları var? Biz avtomobil istehsalçısı deyilik. Sadəcə, hissələri gətirib burda yığırıq, əlimizdə bayraq edirik ki, biz maşın istehsal edirik. Yığma sexi o demək deyil ki, biz maşın istehsal edirik.

*- Parlament seçkilərinin irəli çəkiləcəyi ehtimalı da ara-sıra səslənir. Bu barədə nə məlumatınız var?*

- Bu söhbətlər var. Əgər hakimiyyətin icra sistemində dəyişikliklər baş versə, onda parlament seçkiləri məsələsi ortaya çıxa bilər. Yeni tərəfləri bir araya gətirmək, müəyyən keçid platforması yaratmaq üçün parlament meydançasında dəyişikliklərin olması mümkündür. Amma bundan öncə, əlbəttə ki, müəyyən proseslər getməlidir, bir ictimai saziş olmalıdır ki, biz haraya gedirik, neyləyirik, niyə qururuq? Bunun üçün də "Yol Xəritəsi" lazımdır ki, nə baş verəcəyini biləsən.

*- Prezident seçkisindən sonra Qarabağla bağlı nə baş verəcək sualına sizin cavabınız indi necədir?*

- Qarabağla bağlı canlanma olacaq. Sadəcə olaraq, Azərbaycanda hər şey islahatlara gedilməsindən asılı olacaq. Mən sözümün üstündə dururam ki, Azərbaycanda demokratiya qurulmayana qədər Qarabağ məsələsi həll olunmayacaq. Seçkidən sonra canlanma olacaq. Amma mən bunlara paralel baxıram, yeni biz nə qədər çox islahatlara getsək, dəyişsək, Qarabağda da daha çox uğur qazana bilərik, bunsuz mümkün deyil.

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 79 (6968) 13 aprel 2018



# Gəlmisənsə ekstaza, cum hovuza

Samir SARI

**Elə bir gündür ki, futboldan yazsam, deyəcəklər ki, ölkədə o boyda seçki olub, ondan yazmırsan, futboldan yazırsan. Yox, seçkidən yazsam, deyəcəklər, bəy, oldu, bitdi də, qoy oturaq futbolumuza baxaq, bu daha maraqlıdır.**

Görünür, ən yaxşısı futbolu siyasətə, siyasəti topaldıqaça qatıb yazmaqdır. İllər öncə bir oxumuş adam da deyib ki, dünyada hamının mütəxəssis olduğu iki şey var, biri siyasətdir, biri də futbol. Bu ikisini hamı bilir.

Ancaq bu günlərdə siyasətlə futbolun oxşar, kəsişən, toqquşan nöqtələri çox oldu.

Məsələn, Romanın "Roma" futbol klubu Barselonanın "Barselona" klubunu gözlənilmədən uddu.

Futbolda belə şeylər çox olur, bir də görürsən, zəif hesab olunan komandanın oyunçularının hərəsinin içindən bir Messi çıxır, əzmlə oynayır, udurlar. Futbolda buna "sensation qələbə" deyirlər. Bəziləri hətta bu durumu "futbolun gözəlliyi elə bundadır" deyə şərh edirlər.

Amma siyasətdə elə şey yoxdur. Burada zəif hesab olunan komanda (namizəd və onun dəstəsi) heç vaxt güclüyə qalib gələ, "sensasion qələbə"-filan törədə bilməz. Hər halda bizim kimi sabit ölkələrdə bu, mümkün deyil. Belə şeylər Amerikada-zadda olur.

Necə ki, 2016-cı ilin noyabrında elə oldu. Millətin öndəgedənləri Hillari Klintonun qələbəsini canlı-canlı (ABŞ-dakı canlı yayımla həmahəng) qeyd etmək üçün gecə yarısı, hətta sübh çağı ABŞ səfirliyinə toplaşmışdılar, amma məlum oldu ki, bizim Anar Məmmədovun "dayday"ı Tramp Bəxtiyar Hacıyevin "xala"sına - Hillariyə qalib gəlib. Çox adam səfirlikdən suya-buza dönmüş halda qayıtmışdı və heç kəs deməmişdi ki, "siyasətin gözəlliyi bundadır". Əksinə, həmin gün hamı siyasətin çirkinliyindən, eybəcərliyindən danışırdı.

Tərsinə olsaydı, xanım Klinton seçilsəydi, dünyada çox adam küçələrdə, türkün sözü, sevinc göstərisi yapacaqdı. Bəlkə də bizdə heç kəs zurna sədası altında qol götürüb oynamayacaqdı, amma yüz faiz Bəxtiyarın bəxti "ray" olacaqdı, çünki "xala"sı onu çox istəyir. Anarın "dayday"ının qələbəsi isə ona düşmədi - papasını işdən çıxardılar, özünü də ölkədən qaçaq saldılar. Deyilənə görə, buna səbəb onların Ucarda sevinc göstərisi yapmaları olub - camaata qonaqlıq veriblər, deyiblər, Tramp seçildi, daha sırtımız yerə gəlməz.

Yeni futbola baxmayın, siyasətdə sevinc şousu təşkil edəndə gərək adam bir az ehtiyatlı olsun.

Odur, "Roma"nın prezidenti Ceyms Pallotta komandasının qələbəsinə nə təhər sevinmişdisə, özünü paltarlı-palazlı şəkildə hovuza buraxmışdı. Bəxtindən, hovuzda su varmış. O boyda prezident, qarabağlıların sözü olmasın, cumculuq olub, çıxdı, apardılar qurulamağa. Ancaq dünən gecə bizdə YAP-çılardan kimsə namizədlərinin prezident seçilməsi münasibətilə vəcdə gəlib özünü Hacıbala müəllimin fəvvarəli hovuzlarından birinə atsaydı, təbii ki, corabından qalstukuna qədər hər yeri islanardı və onu aparıb qurulayana qədər adam yazıq olardı, bəlkə də Qatır Məmməd bolşeviklərin inaqurasiya mərasimini görmədiyi kimi, o da inaqurasiyaya qədər birtəhər olardı.

Bu baxımdan ən yaxşısı sevinəndə də təmkinli olmaq lazımdır, salamatı sevinc şousunu zurna ilə yola verməк, oynamaqdır.

Bir də hər ehtimala qarşı 14 saylı seçki dairəsindəki kimi əvvəlcədən hazırlıq görmək, üzərrik yandırıb seçki məntəqəsində püfləmək, şəffaf qutuların başına dolandırmaqdır. Söz yox ki, bu məsuliyyətli işi hər adam bacarmaz, amma çarəsi var. Son vaxtlar toylarda xüsusi olaraq bu işə baxanlar var, qonaqların başına məcməyidə üzərrik dolandırır, üstlərinə tüstü üfürürlər. Çox adam deyir ki, bu, pul tələsidir. Amma yox, üzərrik bizim millətə çox lazımdır. Çünki hər işimiz uğurlu alınır, elə olanda da göz dəyir.

Yəqin ki, o gün "Yuventus" klubunun prezidenti əvvəlcədən üzərrik yandırıb oyunçularının başına fırlasaydı, "Real"ı 3:0 udduqları oyunun sonuncu dəqiqəsində qapılarına penalti verilməzdi (Əlbəttə, burada molla duası yazdırıb ingilis hakim Oliverin dilini-ağzını bağlatmaq da effektli ola bilərdi).

Amma istər siyasətdə, istərsə də futbolda qələbə çox şirindir, hər iki halda riqqət doğurur, adamı elə ekstaza gətirir ki, adam özünü hovuza atır, zurna havasına oynayır.

Bu baxımdan seçki ikincisi olan namizədin tərəfdarlarından biri gərək Hafiz Hacıyevin üzərindəki qələbəyə görə özünü hovuza ataydı. Belə olanda maraqlı olur, dünya bu işdən danışır.

# İsa Qəmbər Bakıya qayıdır

## Aida Qəmbər: "Ailə və qohumların təkidi ilə Almaniyaya getdi"

**Milli Strateji Düşüncə Mərkəzinin sədri, Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbər bir neçə gündür ki, Almaniyaya gedib. Həyat yoldaşı Aida Qəmbər modern.az-a açıqlamasında deyib ki, İsa Qəmbərin Almaniyaya yola salınması müayinə olunmaq istəməsi ilə bağlıdır:**



"Çünki o, vaxtaşırı müayinə olunmalıdır. Sadəcə, ailə və qohumların təkidi ilə bu dəfə Almaniyaya yola salınmasını istədik. Həkimlər arasında seçim etmək istəməzdim. Çünki bizi müalicə edən bütün həkimlərə etimadımız var. Sağ olsunlar. Həkimlərlə bağlı heç bir problemimiz yoxdur".

Aida Qəmbər İsa Qəmbərin ölkəyə nə vaxt qayıdacağından da söz açıb:

"Ola bilsin ki, İsa bəy bu həftə içində Azərbaycana qayıtsın. Mən Azərbaycandayam. Əminliklə qayıtması ilə bağlı dəqiq bir söz deyə bilmirəm. Düşünürəm ki, həftə sonuna qayıda bilər".

İsa Qəmbərin xanımı aprelin 11-də ölkədə keçirilmiş prezident seçkilərində səs verib-vermədiyi barədə də danışıb: "Seçkiləri izləməmişəm. Başım məlum işlərə qarışıb. Prosesləri izləmək baxımından kənarda da qalmamışam. Amma səsvermədə iştirak etmədim. Çünki mənə bildiriş gəlmədi. Düşünürəm ki, Azərbaycan vətəndaşı olaraq mənə bildiriş gətirilməli idi. Artıq bildiriş verilən zaman vətəndaş borcumu yerinə yetirib-yetiməməyim mənimlə bağlı ola bilərdi".

Qeyd edək ki, bu ilin əvvəlində Milli Strateji Düşüncə Mərkəzinin sədri, Müsavat Partiyasının sabiq sədri İsa Qəmbərin səhhətində problem yaranıb. O, Mərkəzi Klinik Xəstəxanada müalicə olunub, ürəyinə bir neçə stent yerləşdirilib.

Fevral ayının sonlarında isə müalicəsini davam etdirmək üçün Türkiyəyə gedib. Ankaradakı Hacettepe Universiteti Xəstəxanasında müalicə olunan İ. Qəmbərin müalicəsi martın 14-də başa çatıb və o, Bakıya qayıdıb.

# Qərb-Rusiya qarşıdurması: xarici siyasətimiz seçim qarşısında

## Tofiq Abbasov: "Əgər hər hansı bir modeli bizə sırımaq istəyirlərsə..."



**Rusiya ilə Qərb arasında illərlə davam edən gərginliyin artan xətlə getməsi Azərbaycana da təsirsiz ötüşmür. Xüsusilə bu qarşıdurmanın Skripal olayından sonra pik həddə çatması rəsmi Bakını müəyyən seçimlər qarşısında qoyub. Görünən odur ki, Qərb-Rusiya qarşıdurması hələ illərlə davam edə bilər. O cümlədən Rusiyaya yaxın olan hakimiyyətlərin də zamanla sanksiyalarla üzləşməsi istisna edilmir, hətta buna bəzi işarələr də var. Ekspertlər bu əsnada rəsmi Bakının indiyə qədər apardığı balanslı siyasətin bundan sonra davamının çətin olacağını, ölkəmizin konkret seçim qarşısında qala biləcəyini qeyd edirlər. Azərbaycanın seçiminin necə olacağı ilə bağlı mövqelər isə birmənalı deyil.**



**Politoloq Tofiq Abbasov** "Yeni Müsavat"a açıqlamasında xarici siyasətin bir çox amillərlə şərtləndiyini bildirdi: "Bu amillərin arasında anlaşma, bəzən qondarma elementlər ortaya çıxır. Burada diplomatiyanın çevikliyi çox şeyi həll edir. Azərbaycan üçün xarici siyasəti yenidən qurmağa ehtiyac yoxdur. Bu siyasət həm Şərq, həm də Qərb deməkdir. Son 25 ildə rəsmi Bakı sərt tələblərlə, şərtlərlə rastlaşıb, amma ilk vaxtlar dözümlü münasibət sərgiləyir, sonradan bıçaq sümüyə dirənəndə öz qətiyyətli mövqeyini bildirir. Hər bir siyasət qarşılıqlı anlaşma şəklində əmələ gəlir. Hər hansı bir fövqəlgüc qəbul olunmaz tələblərlə ortaya çıxırsa, Azərbaycan deyil, istənilən özünə hörmət qoyan dövlət düzgün seçim etmək məcburiyyətində qalır. Açıq şəkildə görürük ki, hazırda dünyada gedən proseslərdə ziddiyyətlər kifayət qədərdir. Terrora qarşı mübarizə aparan dövlətlər terrorçuları maliyyələşdirməkdə ittiham olunurlar. Bu baxımdan hesab edirəm ki, Azərbaycanın xarici siyasəti şəffafdır. Hər hansı bir modeli əgər bizə sırımaq istəyirlərsə, gərək rəsmi Bakı tutarlı arqumentlərlə bunun qarşısını alsın. Burada uzağa getmək olmaz. Bu ilin fevralında Amerikanın Kəşfiyyat İdarəsinin rəhbərinin məruzəsi dərc olundu və biz orada gördük ki, bir neçə ölkəyə, o cümlədən Azərbaycana tələblər irəli sürülür ki, əgər Rusiya ilə silah-sursat və digər bu kimi hallarla əlaqələriniz davam etsə, biz sanksiyalar tətbiq edə bilərik. Bu, sözün əsl mənasında, anlaşılmayan, qərəzli bir yanaşmadır. Çünki hamıya yaxşı bəllidir ki, Azərbaycan təcavüzə məruz qalan ölkədir. Bizim ölkə beynəlxalq sazişlərin tələblərini pozmadan dövlətin maraqlarını, təhlükəsizliyini qorumağa borcludur. Bu hər bir siyasi elitanın vəzifəsidir ki, ölkənin ərazi bütövlüyünü, suverenliyini qorusun. Azərbaycana qarşı qərəzli, anlaşılmayan məkrli bir tələb ortaya qoymaq, həm də onu hədələmək göstərir ki, Amerika başda olmaqla, Qərb dünyası qaydasız döyüşdən istifadə etməyə çalışır. Bunların qarşısında prinsipial mövqenin olması olduqca vacibdir. Azərbaycan heç bir ölkəyə təhdid törətmir. Bizim xaricə təklif etdiyimiz proqramlar, əməkdaşlıqlar dialoq şəklində olan təşəbbüslərdir. Bu baxımdan xarici siyasətdə köklü şəkildə dəyişikliklərə ehtiyacın olduğunu düşünmürəm. Ən çətin vəziyyətlərə hazır olmaq lazımdır. Burada diplomatiyanın çevikliyindən çox şey asılıdır".

T.Abbasov bundan sonra Azərbaycanın yürüdə biləcəyi xarici siyasətə də toxundu: "Suriyada, ümumiyyətlə, Yaxın Şərqdə gedən proseslər onu göstərir ki, sülhdən, bərabərlikdən, demokratiyadan danışan qüvvələr istənilən an gücə, radikal yollara əl atırlar. Bu, Amerikaya da, onun yaxın müttəfiqlərinə də aiddir. Bizim əsas problemimiz Ermənistanın Azərbaycan üçün yaratdıqları çətinliklər, təhdidlərdir. Onların aradan qaldırılması üçün Azərbaycan istənilən an güc vasitəsindən istifadə etməyə hazır olmalıdır. Çox güman ki, bunu etməlidir. Azərbaycan elə bir ölkədir ki, bütün taleyüklü məsələlərin həllində rol oynayırıq. Ölkəmiz ilk növbədə öz müttəfiqliyini qoruyub saxlamalı, ona olan təhdidləri dəf etməli, eyni zamanda əməkdaşlıqda olan təşəbbüskarlığını bir qədər də yuxarı qaldırmalıdır. Biz ətrafımızda qurulmuş sədləri yavaş-yavaş aradan qaldırmağa müvəffəq olmuşuq. Bu hərəkətləri dayandırmamalıyıq. İntensivlik öz qüvvəsini saxlamalıdır. Eyni zamanda erməni təcavüzünün qarşısında dünyaya bərabərhüquqlu əməkdaşlığa hazır olmağımızı konkret işlərimiz, təşəbbüslərimizlə təsdiqləyək. Bunlar xarici siyasətimizin əsas istiqamətlərindən biri olmalıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 79 (6968) 13 aprel 2018

**Azərbaycanda 4 aydan çoxdur ki, təhsil naziri postu boş qalıb. Belə ki, ötən ilin dekabrında prezident İlham Əliyev Mikayıl Cabbarovun təhsil naziri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb. Onun yerinə isə hələ də təyinat olmayıb. Mikayıl Cabbarov vergilər naziri təyin olunduqdan sonra Təhsil Nazirliyində birgə çalışdığı bəzi şəxsləri də yeni quruma aparıb. Nəticədə Təhsil Nazirliyində hazırda təkcə nazir postu deyil, bir neçə şəxsin yeri də vakant qalıb.**

# Yeni supernazir kim olacaq?

## Təhsil Nazirliyində hazırda təkcə nazir postu deyil, bir neçə şəxsin yeri də vakant qalıb



Ekspertlər onu da bildirirlər ki, Təhsil Nazirliyinin strukturu genişləndiriləcək, elm sahəsinə aid bəzi təşkilatlar da nazirliyin tərkibində birləşdiriləcək. **Bəs, belə olacağı təqdirdə supernazir postuna kim təyin ediləbilər?**

Ötən aylarda mətbuatda təhsil naziri postuna namizəd kimi müxtəlif şəxslərin adları çəkilib. Onlar arasında hazırkı müavin və nazir vəzifəsini icra edən Ceyhun Bayramov, Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadə, Bakı Neft Məktəbinin rektoru Elmar Qasımovun adlarını qeyd edə bilərik. Bu şəxslərin içərisində xüsusilə də Ceyhun Bayramovun adı daha çox hallanır. Qeyd edək ki, daha öncə də nazir vəzifə başında olmadığı ərəfələrdə onu məhz C.Bayramov əvəz edib. Bu şəxslərin adları çəkilsə də, özləri konkret olaraq məsələ ilə bağlı açıqlama verməyiblər.

**"Yeni Müsavat"a danışan təhsil eksperti Kamran Əsədov** bildirib ki, təhsil naziri postunun uzun müddət boş qalmasının əziyyətini vətəndaşlar çəkir:

"Belə ki, vətəndaşların regionlarda müraciətlərinə baxılma məsələsi həyata keçirilmir. Yeni prezidentin sərəncamına əsasən, komitə rəhbərləri və nazirlər müvafiq olaraq hər ay regionlarda görüşlər keçirməlidirlər. Ancaq 4 aydan çoxdur ki, təhsillə bağlı problemləri, şikayətləri olanlar bunu birinci şəxsə çatdıra bilmirlər. İkincisi də hazırda nazir müavini nazir səlahiyyətlərini yerinə yetirir. Deməli, eyni vaxtda onun vəzifəsi də boş qalıb. Çünki istər-istəməz öz kurasiyasına aid olan məsələlərə vaxt ayıra bilmir. Bundan başqa, nazirlikdə bir neçə yüksək vəzifə tutan şəxslər digər qurumlara keçdiyi üçün onların da yeri boş qalıb. Bu da nəticə etibarilə vətəndaşın məsələlərinin dinlənilməsində, həll olunmasında ciddi problemlər ortaya qoyur. Hesab edirəm ki, yaxın 2 həftə ərzində nazir postu boş qalmayacaq. Nazir postunu tutacaq şəxsin kimliyi isə, əlbəttə ki, cəmiyyətdə geniş müzakirə predmetidir. İnsanlar digər nazirliklərdən daha çox, bu nazir postuna kimin təyin ediləcəyini maraq edir. Çünki ölkədə 4472 orta ümumtəhsil məktəbi var və burada 1.6 milyon şagird təhsil alır. Ali təhsil müəssisələrimizdə isə 164 min tələbə təhsil oxuyur. Bu, təkcə elə təhsil alanların sayıdır. Bu təhsil müəssisələrində isə 170 minə yaxın müəllim var. Baxanda görürük ki, geniş bir kütlə tam olaraq nazirsiz vəziyyətdədir. Düşüncəm budur ki, nazir postunu artıq 4 aydır idarə edən şəxs- Ceyhun Bayramov nazir olacaq. Ya təhsilə yeni bir şəxs gələcək və 4-5 ildir həyata keçirilən islahatlar yavaşlayacaq, ya da köhnə hesabla davam edəcək. Düşünürəm ki, ciddi dəyişikliyə ehtiyac olmayacaq. Çünki nəzərə alsaq ki, prezident artıq 5 il deyil, 7 illik seçilib. Başlamış layihələrin başa çatması üçün də 2 il vaxt lazımdır. Çünki Təhsil Nazirliyinin 2014-15-ci ildə başladığı layihələr öz effektini 2020-ci ildə bitirəcək. Ona görə də mənim namizədim Ceyhun Bayramovdur və böyük ehtimalla nazir təyin ediləcək. Digər namizəd kimi isə ciddi bir şəxs olan, nüfuzlu, elmi, təhsili bilən şəxs Abel Məhərrəmovdur. Əgər biz yenidən ənənəvi təhsil üsuluna keçməyi düşünürüksə, yaxud da Təhsil Nazirliyində şəxslərin rolunun artmağını hesab edirikə, daha çox onun bu posta gələcəyini hesab edirəm. Deməli, Ceyhun Bayramovdan sonra ikinci namizəd Abel Məhərrəmovdur".

**Ekspert bildirib ki, supernazirlik də yaradıla bilər:**

"Əvvəlki illərdən fərqli olaraq indi prezidentlik müddəti daha uzundur. 7 il kifayət qədər bir vaxtdır və artıq təkcə Təhsil Nazirliyi yox, hökumətin tərkibində bir çox qurumların ləğvinin şahidi olacağıq. Bunların da başında, təbii ki, Təhsil Nazirliyi gəlir. Çünki fakt budur ki, hazırda məktəbəqədər təhsil müəssisələri, ali məktəblər, Milli Elmlər Akademiyası Təhsil Nazirliyinə tabe deyillər. Ancaq bunlar hamısı bir-birləri ilə bağlıdırlar. Ona görə də düşüncəm odur ki, bu quruma artıq yeni əlavələr olacaq. Bu təcrübə Azərbaycanda var. Daha öncə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Nəqliyyat Nazirliyi birləşdi. Hətta bunlar bir-birinə aid olmasalar belə, birləşmə halını gördük. Ən inkişaf etmiş ölkələrdə Təhsil Nazirliyi ayrıca qurum deyil. Elm, Təhsil, Mədəniyyət, İnnovasiyalar Və Gənclər Nazirliyi olaraq fəaliyyət göstərirlər. Həqiqətən də düşünürəm ki, Mədəniyyət və Turizm Nazirliyinin ən çox bu sahəyə aidiyyəti var. Gözləntim odur ki, hökumətin tərkibi açıqlanan zaman yeni struktur yaradılacaq. Onun da adı Elm-Təhsil-İnnovasiyalar Nazirliyi olacaq. Milli Elmlər Akademiyası və digər yuxarıda sadaladıqlarım da bunun tərkibində olacaq. Müstəqil olmaları bəzən təhsilin imic və inkişafına mane olur. Təhsil Nazirliyi hansısa innovativ layihələrin həyata keçirilməsi zamanı universitetlərə müraciət edəndə müəyyən nomenklatur baryerlərlə qarşılaşır. Çünki tabeçilik yoxdur. Təhsil Nazirliyinin universitetlərdə nüfuzunun artırılmasına ehtiyac var. Hətta 2017-ci ildə ölkə başçısı da Təhsil Nazirliyinə müəyyən səlahiyyətlər verib. Ona görə də hətta Dövlət İmtahan Mərkəzinin belə Təhsil Nazirliyinin daxilində olan qurum kimi fəaliyyətini gözləyirəm".

**❑ Əli Rais,**
**"Yeni Müsavat"**

# Sabiq nazirlər hədəfdə: Məmmədov və Mahmudov müəmması

## Sabiq nazirlər o qədər irimiqyaslı qanunsuzluqlara yol verib ki, cəmiyyət onların yalnız işdən çıxarılması ilə barışmaq istəmir

**Seçki prosesi yekunlaşdı, hakimiyyətə qarşı cəbhə açmış kəsimin idarəçilərinə qarşı savaş başlayır. Məhşər ayağına çəkiləcək şəxslər sırasında ilk yerləri sabiq məmurların tutacağı haqda iddiaları var.**

Ötən saylarımızdan birində Azərbaycan hakimiyyətinin xaricdən ona qarşı yönələn hücumların kimlər tərəfindən təşkil olunması istiqamətində araşdırmalara başlaması haqda yazı dərc etmişdik. Redaksiyamıza daxil olan məlumatlardan belə aydın olurdu ki, hücumlara yön verənlər vaxtilə hakimiyyətdə təmsil olunmuş sabiq nazirlərdir. O nazirlər ki, hakimiyyətdə olduqları illərdə korrupsiya piramidalarının başında dayanıblar. Belə eks nazirlərdən biri kimi hazırda xaricdə yaşayan Abbas Abbasovun adı çəkilirdi. Baş nazirin sabiq birinci müavini olmuş Abbas Abbasovun adı son 2 prezident seçkilərində hakimiyyətə qarşı cəbhənin mərkəzi fiqurlarından biri kimi hallanmaqdadır. Onunla eyni cərgədə dayananlar da vaxtilə hakimiyyətdə təmsil olunmuş eks-nazirlərdir. Bu sırada sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun, keçmiş nəqliyyat naziri Ziya Məmmədovun adları hallanırdı.

Hazırda sabiqlərin adları yenidən medianın gündəminə gəlib. Hətta seçkiöncəsi çıxışlarında prezidentliyə namizədlər də bu mövzuya geniş yer ayırırdılar. Konkret olaraq Hafiz Hacıyev çıxışlarında Ziya Məmmədovu dövlət çevrilişinə cəhddə ittiham edirdi. Bundan başqa, o, baş nazirin müavini İsmət Abbasovun oğlu, Böyük Britaniyada yaşayan iş adamı Yunis Abbasovun adını da çəkməklə onun antiiqtidar kampaniyasında rol aldığını demişdi. Belə məlumatlar da vardı ki, Yunis Abbasov hökumət əleyhinə olan kəsimə maliyyəçi qismində dəstəyini əsirgəmir. Hafiz Hacıyevin iddiaları bununla da bitmirdi. Ziya Məmmədovun neqativ fəaliyyətindən danışarkən onun Rusiyaya 30 milyon dollar ötürərək Vladimir Putindən prezident olmasına yardım göstərməyi rica etdiyini, oğlu Anar Məmmədovun ABŞ-ın siyasi dairələri ilə keçirdiyi görüşlərdə atasının daha yaxşı prezident ola biləcəyi barədə fikirlər səsləndirdiyini dilə gətirirdi.




Bu iddiaların nə dərəcədə doğru olması bilinmir. Bilinən odur ki, seçkilər yekunlaşıb, nəticə bəllidir. Yeni-köhnə hakimiyyət komandası ona qarşı olanları yolundan süpürüb kənara tullamağa hazırlaşır. Eldar Mahmudova gəlincə, onun dövlət çevrilişinə hazırlaşdığı barədə iddialar hələ "MTN işi"nin ilk günlərində dövriyyəyə buraxılmışdı. Hətta onun bu səbəbdən işdən çıxarıldığı və komandasının zərərsizləşdirildiyi bildirilirdi.

Aylardır ki, hakimiyyətin seçkidən sonra "təmizləmələrə" başlayacağı xəbəri yayılır. Artıq seçki bitib. Bu arada sabiqlərin yenidən gündəmə gətirilməsini də təsadüf hesab etmək olmaz. Hakimiyyətin ötən 2-3 ayda prosesi sükutla izləməsi belə mülahizələrə yol açıb ki, aprelin 11-də keçirilən prezident seçkisindən sonra gözlənilən dəyişikliklər sabiqlərin atdığı addımlara görə sorğu-sual olunması, hətta həbsləri ilə başlana bilər. Mümkündür ki, həbslər hazırda iqtidar komandasında olub hakimiyyətə qarşı passiv müxalif mövqedə dayananları da əhatə etsin. Abbas Abbasov, Ziya Məmmədov və Eldar Mahmudov işdən çıxarılsalar da, onların hələ də bu və ya digər formada proseslərə təsir imkanları qalır. Hakimiyyətdə də tərəfdarları olmamış deyil. Digər tərəfdən, sabiq nazirlər o qədər irimiqyaslı və ciddi narazılıq yaradan qanunsuzluqlara yol verib ki, cəmiyyət onların cəza olaraq yalnız işdən çıxarılması ilə barışmaq istəmir. Hakimiyyət də bunun fərqində olmamış deyil. Odur ki, yaxın gələcəkdə həbslər qaçılmaz görünür...

**❑ E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 79 (6968) 13 aprel 2018



# Qurdlu yazı

Zamin HACI
zaminhaci@gmail.com

**"Onlar "Leyli-Məcnun"u vur-tut bir dəfə, uşaqlıqda əl-ələ tutuzdurub, gələcəkdə mədəni olmaları üçün məcburi "Opera"ya aparılanda görmüşdülər. Odu-budu, bu tamaşaya "kres" qoydular. Atalarını Məcnun qiyafəsində görəndə, az qalmışdı bunlar özü dəli ola, ölüb yerə girələr".**

*(Rafiq Tağı, "Qoca Məcnun" hekayəsindən)*

Məzahir müəllim ilkin nəticələri açıqlayıbdır, orada namizədlərdən Razi müəllimə 29 min səs çıxıbdır. Sıfır tam neçəsə faizdir. İşin məzəli tərəfi odur ki, Razi müəllimin namizədliyini qeydə almaq üçün qabaqca qanuna uyğun olaraq 60 seçki dairəsindən 40 min imza toplanmışdı. Belə çıxır Razi müəllimin namizəd olmasına səs verənlərin 11 mini də axırda ona səs vermək istəməyibdir.

O cümlədən iqtidar partiyasının təbliğat tədbirlərində aktiv iştirak etdiyi üçün müğənni Afaq Aslana verilən diplomda "seçki kompaniyası" yazılıbmış. Sanki seçkilər bir şirkətdir, biznes qurumudur. YAP həmin diplomu qayıran şəxslərə cəza verdiyini bildirir. Ancaq əl çaşıb doğrusunu yazanda, onu kəsmək düzgündürmü? Alternativ, tənqidi fikir iqtidarın elə özünə hamıdan çox lazımdır. Sabah gerçək durumu qiymətləndirmək üçün. Yoxsa özün çal, özün oyna, Qaçaq Nəbinin toyu kimi prosedurlar elə - bunun mənası nədir?

Bu arada "Yuventus" futbol komandasının qapıçısı Canluici Buffon-dan mükəmməl bir tənqidi cümlə oxudum, təkrar tirajlamaq istəyirəm, çünki bizim region üçün aktualdır. Axı hazırda iqtidar və xaricdəki bir qrup arasında guya ciddi münaqişə, söyüşmə vardır (şəxsən mən bu prosesdə iqtidarın udduğu qənaətindəyəm, özləri də qəsdən prosesi süni şəkildə körükləyir, guya söyüşlərdən narahat olduqlarını göstərirlər - uzun temadır, söyən olmasa gələcəkdə yazaram). Ancaq bu adamlar söyüşməni, təhqirləri çox istedadsız şəkildə aparırlar. Çünki söyüşü də gərək istedadla söyəsən. Uzun sözün qısası, Çempionlar Liqasında təzəlikcə nəsə oyun olub, orada hakim Buffona qırmızı vərəqə göstəribdir. İndi Buffon hakimi nəzərdə tutub deyir: "Ürəyin yerində zibil vedrəsi olmamalıdır". Buyurun. Sənətkarcasına təhqir edibdir. Hətta yaradılan obraza, təsvirə görə Buffonu təqaüdə çıxanda APİ-Leninə dil-ədəbiyyat müəllimi işinə dəvət eləsən azdır.

Söhbət açılmışkən, orta məktəbdə rus dili müəllimim olmuş, 90-ların əvvəlində "Aydınlıq" və başqa qəzetlərdə Yaşar Novruz Qarabağlı imzasıyla şeirlər dərc etdirən sevimli Yaşar müəllimi xatırladım. Yaşar müəllim şahmatdan rəssamlığa, ədəbiyyatdan coğrafiyaya qədər hər şeyi gözəl bilən ensiklopedik adam idi və uşaqlar onu əsəbləşdirəndə unikal bir "söyüş" gəlirdi: "Çaqqalın dal quyruğu". Ancaq, əlbəttə, proses bununla yekunlaşmırdı, istedad özünü daha geniş formada büruzə verməliydi və əgər irad obyekti şagird özünü yığışdırmasa, necə deyərlər, tənqiddən nəticə çıxartmasa, bu dəfə tənqidin dozası artırdı: "Çaqqalın dal quyruğunun sol tərəfindəki bir topa tük". Bir növ, bəhri-təvil janrında söyüşlər yaratmışdı. Bəlkə də Yaşar müəllim zənci kimi Amerikada doğulsa çox məşhur rep müğənnisi olardı. Lakin Qarabağda doğulmuşdu, 2000-ci illərdə isə Salyanın Qarabağlı kəndində öldüyünü eşitmişəm. Qayıdaq mövzumuza.

Seçkiləri müşahidə üçün Avropadan gələn qonaqlardan biri isə lap kökündən vurubdur, sosdemlərin namizədi Araz Əlizadənin... qadın olduğunu yazıbdır. Bir növ, "namizədi seçkiyə buraxanda baxmadınız ki, bu kişidir, ya qadın" süjet xətti ilə yeni operetta yaratmaq olar. İstəsək bunu "Azərbaycanın bütün Şərqdə ilk dəfə..." kateqoriyalı yeniliklərindən biri də saymaq mümkündür. İlk dəfə qadınlara səs hüququnu biz vermişik, indi isə qadın və ya kişi olduğu mübahisə doğuran ilk namizədi irəli sürməklə tarixə düşürük. Siz zarafat eləyin. Yüz il sonra buna baxarıq. İsti-isti çox şeyin ağrısı bilinmir. Vaxt keçməlidir.

Örnək üçün, 15-ci əsrdə İngiltərənin 3-cü Riçard adlı kralı olubdur. Ziddiyyətli adam kimi tanınıb və döyüşdə öldürülən 3 ingilis kralından biridir (Onun haqqında BBC-nin satirik "Qara gürzə" teleserialı var, baş rollardan birini "Mister Bin" kimi tanıdığımız Rouen Atkinson oynayır. Şekspir isə "3-cü Riçard" pyesini yazıbdır). Uzun sözün qısası, bu Riçardın qəbrini 20-ci əsrdə açıblar, araşdırma aparıblar və alimlər belə qərara gəliblər ki, kralın qarnında... askarid qurdları varmış.

İndi özünüz fikirləşin, sağlığında hansı qurd ürəkli oğlan onun üzünə deyə bilərdi ki, əlahəzrət, qarnınızda qurd vardır? Beş yüz il keçsin, istəyirsən lap köşədə yaz...

**Ciddi siyasət dünyası siyasi texnoloqların təklifləri ilə aşıb-daşır. Və söyləmək ki, onlara ehtiyac yoxdur, kökündən yanlış olardı. Fəqət, heç də hər yerdə və həmişə texnoloq əməyi dəyərdə deyil - xüsusən də məsələ ciddi, bacarıqlı adamlar tərəfindən həyata keçirilən siyasətə aid olanda...**



# Əliyevin doktrinası: Azərbaycanlılar seçkidə nə uddular?

## Qeyri-standart qərarlar vermək, incə şəkildə manevr eləmək, dolaşıqlıq olan yerdə konkret olmaq bacarığı - İlham Əliyevi dünyanın siyasi elitasındakı həmkarlarından fərqləndirən keyfiyyətlər bunlardır

Siyasətçilərin ən qəliz məsələlərlə bağlı kənar iştirak olmadan universal qərarlar qəbul eləməsinə dair çoxlu nümunələr var. Bununla da onlar ali siyasi dəb elminin hikmətlərindən heç də texnoloqlardan pis baş çıxartmadıqlarını göstəriblər. Ayrı sözlə, özünü təsdiqləmiş idarəçilər orijinal və rasional uğur formulları tapmaqla dəbi elə özləri yaradırlar. Azərbaycanın lideri İlham Əliyevin solosu bunun bariz təsdiqi sayıla bilər.

İlham Əliyev nəzəriyyənin və tətbiqi intizamın uğurlu sintezini həyata keçirməklə yüksək idarəçilik pilotajı nümayiş etdirir. O, şəksiz ki, bu zaman milli seçicinin etimadına əsaslanır. İlham Əliyevin uzun illər sabitliyə hesablanmış kursu saxlamağa imkan verən konsepsiyasının özəlliyi məhz bundan ibarətdir.

İndilikdə Azərbaycanın ən böyük uğuru, nailiyyəti, sübhəsiz ki, sabitlikdir. Elə bir sabitlik ki, istehsalçı qüvvələrə qarşıda duran vəzifələri yerinə yetirmək imkanları yaradır. Ölkədə sakitliyi və ahəngi təmin edə bilməyən hakimiyyətin qara qəpiklik də dəyəri yoxdur. Heç də az yaşı olmayan bir çox dövlətlərin daxili həyatını mövcud dövrün yerindən oynadan və laxladan fırtınalı küləkləri bir daha sabitliyin hansı yüksək qiymətdə olduğunu göstərir.

Konfliktə cəlb olunan və işğal problemi yaşayan ölkə stabil sayıla bilməz deyə, bu yerdə opponentlər etiraz da edə bilərlər. Ancaq belə qənaəti - bitməyən erməni işğalını bugünkü Azərbaycanın həssaslığının və ya zəifliyinin səbəbi saymaq ədalətlidirmi?

Qətiyyən... 2016-cı ilin aprel əməliyyatları İlham Əliyevin əvvəlki prezidentlik dövründəki konsepsiyasının təməl daşı olmaqla bütün zamanlar üçün ölkənin tarixinə qətiyyətin, bacarığın və inadkarlığın rəmzi kimi yazılıb. Təsadüfi deyil ki, Ermənistanın siyasi texnoloqları aprel döyüşləri haqda cəmiyyətə yalan sırımaqla arzu olunanı gerçək kimi təqdim eləməyə çalışırlar. Lakin, necə deyərlər, belə səs-küy təbliğatı heç lax yumurtaya da dəymir.

Azərbaycan Ordusunun döyüşkənliyi və bunun məntiqi davamı olaraq Cocuq Mərcanlı kəndinin dirçəlişi göstərdi ki, Azərbaycan regionda vəziyyətin sahibidir və qeyri-adekvat qonşumuzun cilovlanması kontekstində onun həqiqi məramı nələrdən ibarətdir. Avrasiyanın "Günəş kələfi"ndə yerləşən, fövqəldövlətlərin güclü diqqətində olan ölkə müstəqil şəkildə balanslı hərəkət vektoru qura bilir. Ona görə də Azərbaycan nəhənglərin davasında "nifaq alması" deyil. O, xarici təsir üçün zəif yer saxlamayıb və iri dövlətlərin oyunundan kənarda durmaq bacarığını sübut edib. Beynəlxalq hüququn subyektlərinin geosiyasi çəkisi də geosiyasi parametrlərlə, demoqrafiya göstəriciləri və ya başqa keyfiyyətlərlə ölçülmür, milli elitaların qlobal şəbəkədə öz təyinatını tapmaq qabiliyyəti ilə müəyyən edilir.

İlham Əliyevin dəst-xətti asanca tanınır. Bu dəst-xətt hər şeydən öncə həmvətənlərdə belə bir inam yaradır ki, ölkə düşünüb-daşınmış, proqramlaşdırılmış trayektoriya üzrə hərəkət edir və hər növbəti hərəkət ən xırda detallara kimi işlənilib.

Sirr deyil ki, böyük siyasət reytinq yaradıcılığı kimi bir sferanın vurğunu olur. Ancaq onunla heç də hamı dostluq eləmir. Söhbət kreativ siyasətçilərdən gedirsə, onlardan ötrü hərəkətlər zəncirində ən başlıca və ayrılmaz həlqə rasionallıqdır. Əgər bu həlqə real olaraq duyulursa, demək, uğurdan və ümidverici motivlərdən danışmağın məntiqi var.

Uğurlu siyasətçilər həmişə nəticəyə hədəflənirlər. Onlar üçün nə manupulyativ praktika, nə də ictimai şüurla jonqlyorluq rol oynamır, real axtarışın xeyrinə biganəlikdən qurtuluş önəm kəsb edir. Hər şey mühümlük, ictimai sifarişə nail olmaq anlayışı ilə edilir, onlar adamların təqdirinə səbəb olur və insanları hakimiyyətə inanmağa vadar edir.

Qeyri-standart qərarlar vermək, incə şəkildə manevr eləmək, dolaşıqlıq olan yerdə konkret olmaq bacarığı - İlham Əliyevi dünyanın siyasi elitasındakı həmkarlarından fərqləndirən keyfiyyətlər bunlardır. Bir çoxlarına daim öz imicini yaxşılaşdırmaq haqda düşünmək, həmin o siyasi texnoloqlardan dəstək ummaq, başqalarını təqlid eləmək xüsusiyyəti xasdır. Ancaq natamamlıq kompleksindən qurtulmağın effektli bir resepti mövcuddur və o, Azərbaycan liderində var. Onun mahiyyətində şəxsi dünyagörüşü və təsəvvürlər üzərində qurulmuş özəl imicə sahiblənmək hədəfi dayanır.

Seçkili koordinatlar sistemində yalnız bir realistik reytinq var: bu, səsvermənin yekunlarıdır. Bu nəticələrə hakimiyyətdəkilərin apardığı siyasətin nəticələri həmişə güclü təsir edir. Ayrı sözlə, seçicinin etimadı - islahatların effektivliyi, innovasiyalar və proqram fəaliyyəti göstəricilərinə yekin münasibətdir ki, bu da var.

Regionda sabitlik qövsü yaratmağa nail olan və yaradıcı fəaliyyətə təkcə həmvətənlərini deyil, qonşu ölkələrin də istehsalçı qüvvələrini cəlb edən İlham Əliyev birinci il deyil ki, mütləq liderdir. Etibarlılığın təməli məhz belə qoyulub - elə bunun üzərində də fəal çoxsahəli fəaliyyət davam edir.

İnsanlar proqnoza yatımlılığa, müəyyənliyə həmişə səs verməyə hazırdırlar, çünki hədəflərin aydınlığı uğurun yarıdan çoxu deməkdir. Ona görə də Azərbaycan seçicisi özünün tutarlı sözünü dedi və seçimini aşkar açıqfikirliliyin xeyrinə elədi.

Məqalənin rus versiyası bu linkdə: https://m.min-val.az/news/123781108
ttps://m.min-val.az/news/123781108

❑ **"Yeni Müsavat" Media Qrupu**

**Mərkəzi Seçki Komissiyası (MSK) aprelin 11-də keçirilmiş prezident seçkilərinə aprelin 21-dək yekun vuracaq. MSK-nın Media və İctimai Əlaqələr Şöbəsindən verilən məlumata görə, qanunvericiliyə əsasən, Mərkəzi Seçki Komissiyası səsvermə günündən başlayaraq 10 gündən gec olmayan müddətdə prezident seçkilərinə yekun vurur və nəticələri təsdiq olunmaq üçün Konstitusiya Məhkəməsinə təqdim edir. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatı səsvermə günündən sonra 14 gün ərzində rəsmən elan edir. Konstitusiya Məhkəməsinin bu barədə qərarı qətidir.**

# Seçkinin yekun nəticələri açıqlandı

## İkinci yerin sahibi Zahid Oruc oldu; prezidentliyə namizədlər dövlət başçısına zəng etdilər



**MSK sədri Məzahir Pənahov** aprelin 12-də keçirdiyi mətbuat konfransında yekun nəticələri açıqlayıb. M.Pənahov bildirib ki, prezident seçkilərində 3 milyon 962 min 123 seçici səs verib.

125 seçki dairəsi üzrə 5 min 641 seçki məntəqəsinin hamısı hesabat verib. MSK sədri deyib ki, 3 milyon 962 min 123 bülletendən 3 milyon 962 min 96 bülleten sayılıb. Səslərin 99,68 faizi etibarlı, 0,32 faizi etibarsız sayılıb.

Beləliklə, nəticələrə əsasən, İlham Əliyev 86,03 faiz, Zahid Oruc 3,11 faiz, Sərdar Cəlaloğlu 3,03 faiz, Qüdrət Həsənquliyev 3,02 faiz, Hafiz Hacıyev 1,52 faiz, Araz Əlizadə 1,38 faiz, Fərəc Quliyev 1,17 faiz və Razi Nurullayev 0,74 faiz səs toplayıb.

MSK sədri onu da bildirib ki, seçkini izləyən beynəlxalq müşahidəçilərin fikirləri müsbət olub. Müşahidəçilər mətbuata açıqlamalarında da bunu qeyd ediblər: "Beynəlxalq müşahidəçilər seçkilərə hazırlığı və seçki prosesini yüksək qiymətləndirib. Beynəlxalq müşahidəçilər bizimlə söhbətdə də bunu deyiblər. Bir sıra beynəlxalq təşkilatlar seçkiləri nümunəvi hesab ediblər".

M.Pənahov prezident seçkilərində səsvermə ilə bağlı sosial şəbəkələrdə yayılan və qanun pozuntusu kimi təqdim edilən görüntülərə də münasibət bildirib. O, həmin məlumatların yoxlandığını, heç birinin təsdiqini tapmadığını söyləyib.

MSK sədri deyib ki, sosial şəbəkələrdə qeyd olunan məntəqələrdən biri ilə bağlı ünvan belə həqiqəti əks etdirməyib.

**BAXCP sədri, prezidentliyə keçmiş namizəd Qüdrət Həsənquliyev** isə prezident İlham Əliyevə zəng edib. BAXCP-nin Seçki Qərargahından "Yeni Müsavat"a verilən məlumata görə, Q. Həsənquliyev yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə İlham Əliyevi təbrik edib, Azərbaycanın inkişafı və xalqımızın rifahı yolundakı fəaliyyətində uğurlar arzulayıb.

**Seçkidə ikinci yerin sahibi Zahid Oruc** da prezident İlham Əliyevə telefonla zəng edib. Zahid Oruc yenidən Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevi təbrik edərək, inamlı qələbəsi münasibətilə ona ən xoş arzularını bildirib, millətimizin gələcək firavanlığı naminə şərəfli vəzifəsində böyük uğurlar diləyib.

**Beynəlxalq müşahidəçilər isə seçkilərlə bağlı mövqelərini aprelin 12-də açıqlayıb.**

**Avropa İttifaqı Regional komitə üzvlərinin Müşahidə Missiyası** 11 aprel prezident seçkilərinin nəticələrinə dair bəyanatını açıqlayıb. Missiyanın üzvü **Uno Silberq** səsvermə günü 46 seçki məntəqəsində müşahidə həyata keçirdiklərini deyib. O, müşahidələrə və araşdırmalara əsasən, prezident seçkilərinin önə çəkilməsinə dair qərarın milli qanunvericiliyə uyğun qəbul edildiyini, səsvermə prosesinin texniki və təşkilati baxımdan yaxşı təşkil edildiyini bildirib.

U. Silberq seçici fəallığının yüksək olduğunu və səsvermə prosesinin dinc şəraitdə keçirildiyini, kənar müdaxilələr müşahidə etmədiklərini deyib: "Üç məntəqədə səslərin sayılması prosesini izlədik və heç bir maneçilik olmadı. Yekun olaraq belə hesab edirik ki, seçkilər legitimdir və seçicilərin sərbəst, gizli səsvermə hüquqları təmin edilib".

**Bosniya-Azərbaycan Parlamentlərarası dostluq qrupunun** üzvləri prezident seçkiləri ilə bağlı mətbuat konfransı keçiriblər. APA-nın məlumatına görə, dostluq qrupunun rəhbəri **Pedrak Kozul** bildirib ki, seçkilər uğurla təşkil olunub, bütün beynəlxalq müşahidəçilər üçün bərabər şərait yaradılıb: "Azərbaycan xalqını seçki münasibətilə təbrik edirəm. Azərbaycan parlamentinə minnətdarlığımı bildirirəm ki, bizi seçki prosesini izləmək üçün dəvət edib. Seçki prosesini izləmək üçün bütün beynəlxalq müşahidəçilərə bərabər imkan yaradılmışdı. Müşahidələrimiz zamanı məntəqələrdə heç bir problemin şahidi olmadıq. Seçkilər zamanı gənclərin fəallığını daha çox müşahidə etdik. Bundan başqa, əlil insanların da seçkidə iştirak etmələri üçün imkan yaradılmışdı".

**İtaliyalı müşahidəçilər** isə Azərbaycanda keçirilən prezident seçkilərinin nəticələrinə dair bəyanat yayıblar: "Yerli hakimiyyət və polis tərəfindən seçkinin gedişinə müdaxilə müşahidə olunmayıb. Səsvermə kabinələri səsvermənin gizliliyini təmin etmək məqsədilə düzgün yerləşdirilmişdi və seçki qutuları möhürlənmişdi. Səsvermə zamanı veb-kameraların istifadəsini təqdir edirik. Seçki zamanı beynəlxalq müşahidəçilərə heç bir məhdudiyyət olmayıb. Seçici fəallığı yüksək idi və müşahidəçilər ictimaiyyətin seçkilərə yüksək marağını qeydə alıblar".

**Serbiya Parlamentinin sədr müavini Veralub Arsiç** prezident seçkiləri ilə bağlı mətbuat konfransı keçirib. O da seçkilərin yüksək səviyyədə təşkil olunduğunu deyib: "Yüksək nəticəyə görə prezident İlham Əliyevi təbrik edir, ona işlərində böyük uğurlar arzu edirəm. Sizin ölkənizdə bayram əhvalı gördüm. Xalq öz prezidentini seçmək üçün sərbəst şəkildə, həm də fəallıqla məntəqələrə gedir, səsini verirdi. Məntəqələrdə olarkən hər hansı neqativ halla qarşılaşmadıq. Təşkilatçılıq yüksək səviyyədə idi".

**Moldova parlamenti sədrinin müavini, Moldova-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Vladimir Vitiuc** da mətbuat konfransında bildirib ki, seçkilər çox yüksək səviyyədə keçib: Azərbaycan təcrübəsi başqa ölkələr üçün nümunədir.

**Prezident seçkilərində müşahidə aparan Türk Şurasının müşahidə missiyasının rəhbəri Ömər Kocaman** isə deyib ki, seçkilər beynəlxalq standartlara uyğun şəkildə keçirildi: "Hər hansı problemlə qarşılaşmadıq. Seçicilər çox fəal idi. 55 məntəqədə olduq. Hər bir məntəqədə şərait seçki qanunauyğunluğuna cavab verirdi".

**Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Altınbek Mamaiusupov** da seçkilərin azad və şəffaf təşkil olunduğunu deyib.

**MDB İcraiyyə Komitəsinin rəhbəri Sergey Lebedev** isə bildirib ki, MDB müşahidə missiyası martın 20-dən Azərbaycanda işləyir və bütün regionlarda müşahidə aparıblar: "Biz seçkilərin legitimliyini şübhə altına alacaq faktla rastlaşmadıq. Səsvermə Azərbaycan Seçki Məcəlləsinə uyğun oldu, açıq və şəffaf keçirildi. Namizədlər üçün rəqabət mühiti yaradılmışdı. Bəzi çatışmazlıqlar da oldu, lakin bunlar əsasən texniki xarakter daşıyırdı".

**MDB Parlamentlərarası Assambleyası müşahidə missiyasının rəhbəri İlyas Umaxanov** da qeyd edib ki, Azərbaycanda prezident seçkiləri qanuna uyğun keçirilib.

**Baltik Assambleyasının prezidenti, Litva parlamenti nümayəndə heyətinin rəhbəri Valerius Simulik** isə məntəqələrdə seçici fəallığının şahidi olduqlarını deyib: "Hər kəs azad və sərbəst şəkildə öz namizədinə səs verirdi. Sizin ölkənizdə insanlar seçkilərdə çox fəallıq göstərirlər. Avropa ölkələrində seçici fəallığı buradan az olur. Seçki prosesi tam qanunauyğun keçirildi".

**Rumıniya Parlamentinin Deputatlar Palatasının müşahidə missiyasının rəhbəri Viktor Ponta** isə mətbuat konfransında bildirib ki, ümumilikdə seçki demokratik prinsiplərə uyğun təşkil edilmişdi: "Üç məntəqədə olduq, müşahidəçilərlə söhbət etdik. Müşahidə apardığımız məntəqələr lazımi texniki avadanlıqla təmin olunmuşdu. Müşahidə ilə bağlı Rumıniya parlamenti adından yazılı rəy də göndəriləcək".

**Qazaxıstan Senatının üzvü Abdalı Nuraliyev** prezident seçkiləri ilə bağlı təşkil olunan mətbuat konfransında bildirib ki, seçkilər tam şəffaf və azad şəraitdə keçib.

**Çexiya deputatlar palatasının üzvü Yirji Valenta** isə prezident seçkiləri ilə bağlı təşkil olunan mətbuat konfransında bildirib ki, səsvermə zamanı hər hansı qanun pozuntusu ilə qarşılaşmayıblar.

**Qırğızıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin müavini Talaybek Masabirov** da mətbuat konfransında qeyd edib ki, seçki şəffaf və ədalətli keçib.

**Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupu rəhbərinin katibi Yasin Lamur** prezident seçkiləri ilə bağlı təşkil olunan mətbuat konfransında seçkilərin beynəlxalq standartlara uyğun keçirildiyini deyib.

**Azərbaycan Demokratik İslahatlar Partiyası** (DİP) da prezidenti seçkiləri ilə bağlı müşahidələrinin nəticələrini açıqlayıb. DİP-in bu barədə bəyanatında deyilir: "DİP-dən olan müşahidəçilər ölkə üzrə 125 seçki dairəsini və müvafiq olaraq 1000-dək seçki məntəqəsini əhatə ediblər. Onların verdiyi məlumatlara görə, namizədlərin qeydə alınması prosesində hər hansı qanun pozuntusu müşahidə olunmayıb. Bütün namizədlərə elektron və çap kütləvi informasiya vasitələrinə çıxış imkanları yaradılıb. Siyasi qüvvələrin sərbəst toplaşmaq hüququ məhdudlaşdırılmayıb. MSK-nın seçkiləri yüksək səviyyədə təşkil etməsi, seçki maarifləndirməsi sahəsində gördüyü işlər, məntəqələrə müşahidə kameralarının yerləşdirilməsi, seçki günü ictimaiyyətin operativ şəkildə nəticələrlə bağlı məlumatlandırılması, KİV-ə, qeyri-hökumət təşkilatlarına, siyasi partiyalara, beynəlxalq təşkilatların nümayəndələrinə seçkiləri müşahidə etmək üçün normal şəraitin yaradılması təqdirəlayiqdir.

Ümumilikdə seçki prosesində, eləcə də səsvermə zamanı hər hansı qanun pozuntuları, seçicilərlə seçki komissiyalarının üzvləri arasında gərginlik müşahidə olunmayıb. 11 aprel seçkiləri şəffaf və demokratik qaydalara uyğun şəraitdə keçib. Seçicilərə öz iradəsini sərbəst şəkildə ifadə etmək üçün lazımi şərait yaradılıb, seçici fəallığı aşkar hiss olunub. Təqdirəlayiq haldır ki, ölkəmizin diplomatik nümayəndəliklərinin səfirlik və konsulluqlarında müvafiq seçki komissiyaları yaratması nəticəsində bütün dünyadakı azərbaycanlılar Azərbaycan Respublikasının prezident seçkilərində iştirak etmək imkanı qazanıblar.

DİP-in müşahidəçilərinin qeydləri və əldə edilən yekun protokolların nəticələri MSK İnformasiya Mərkəzinin elan etdiyi nəticələrlə üst-üstə düşür. Bəzi istisnalar olmaqla, müşahidəçilər seçki prosesində ciddi qüsurlar, qeyri-qanuni hallar müşahidə etməyiblər. Ümumilikdə bu seçkilərdə ölkədə keçirilən əvvəlki seçkilərlə müqayisədə müsbət irəliləyişlər müşahidə olunub".

Seçkini boykot edən AXCP, Müsavat Partiyası və Milli Şura isə seçkinin nəticələrini legitim saymadıqlarını bəyan ediblər.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 79 (6968) 13 aprel 2018

# Ekspertdən SOS: Bakıda 15 min təhlükəli dönərxana var

## Dönər zəhərə dönəndə...

**Manatın devalvasiyasından sonra ölkədə bir çox qida məhsullarının qiyməti bahalaşdı. Son zamanlar isə tərəvəz bazarında qiymət artımı nəzərə çarpmaqdadır. Lakin maraqlısı budur ki, ətin, tərəvəzin qiyməti bahalaşsa da, Bakıda illərdir ki, 1 manata satılan dönərlərin qiyməti dəyişmir. Əksinə, bəzi dönərxanalarda hətta 1 manata dönərlə bərabər ayran da verirlər. 1 manatlıq dönərlər xüsusilə metronun "Elmlər Akademiyası" stansiyasının yaxınlığında, tələbələrin daha çox olduğu yerlərdə satılır.**

Dəfələrlə dönərxanalarla bağlı müxtəlif ekspertlər həyəcan təbili çalıblar. Lakin vəziyyət dəyişməz olaraq qalır.

Dönəxanalarda olduğumuz zaman müşahidə etdik ki, əksər dönərçilər heç bir əlcəkdən istifadə etmədən, gigiyena qaydalarına məhəl qoymadan dönər hazırlayıb satırlar. Bir nəfərin çox çətinliklə hərəkət edə biləcəyi genişlikdə olan dönərxanalarda gigiyena qaydalarının pozulması heç də şübhə doğurmur.

Ancaq buna baxmayaraq, dönərçilər bildirirlər ki, onların işləri müvafiq qurumlar tərəfindən yoxlanılır və lazımi sertifikatlarını alıblar. Olduğumuz dönərxanalarda isə bizə sertifikat göstərən olmadı. Söylədilər ki, sənədlər dönərxananın sahibindədir. Dönərçilər isə gündəlik maaşa işləyirlər...

Onu da qeyd edək ki, ötən ilin dekabr ayında Avropa Birliyi (AB) Azərbaycanda dönər və şaurma ətinə əlavə edilən fosfatın qadağan edilməsinə çağırmışdı. Avropa Birliyi rəhbərliyinin əsaslandığı təhqiqatlara görə, fosfatların istifadə olunması ürək-damar xəstəliklərinin yaranmasına səbəb olur.

Öz növbəsində dönər hazırlayan küçə kafelərinin sahibləri AB hakimiyyətinin əleyhinə ittihamlarla çıxış etdilər. Onlar dönər-kabab və şaurmanın əsasən Türkiyədən gələnlərin hazırladığını bildirərək bu qərarın diskriminasiya olduğunu bildirdilər.

Həmin vaxt "Yeni Müsavat" olaraq Bakıdakı dönərxanaların bəzilərində monitorinq apardıq. Dönərçilərimiz heç bu maddənin nə olduğunu bilmədiklərini söylədilər...

**Hazırda isə "Azad İstehlakçılar Birliyi"nin sədri Eyyub Hüseynov** da Bakıda yerləşən dönərxanalarda monitorinq aparır. Ekspert "Yeni Müsavat"a bildirib ki, onlar bu monitorinqi apardıqları zaman təzyiqlə üzləşiblər. Həmçinin E. Hüseynov təhlükənin miqyasına da diqqət çəkərək bildirib ki, hazırda ölkədə 15 minə yaxın dönərxana fəaliyyət göstərir ki, onların da böyük əksəriyyəti təhlükə mənbəyidir: "Dönərxanalarda mənşəyi məlum olmayan ətdən dönər satılır. Azərbaycanda dönəri standartlara uyğun hazırlayan iki müəssisə mövcuddur. Bu müəssisələrdə dönərlər təzə ətdən hazırlanır və mənfi 40 dərəcə olmaqla şok dondurmadan keçirilir, bükülür, xüsusi avtomobillər vasitəsilə dönərxanalara çatdırılır. Ona görə şok dondurmadan keçirilirlər ki, dönər yeganə bişmiş məhsuldur ki, onun çölü bişən zaman içərisi çiy qalır. Şok dondurma zamanı heyvan mənşəli bakteriyalar, viruslar ölür. Ona görə də yalnız bu cür hazırlanan dönərlər təhlükəsizdir. Qeyri-rəsmi məlumata görə, Bakıda olan 15 min dönərxanadan cəmi 100-ə qədəri bu cür yerlərdən ət alır. Kim haradan, necə gəldi ət alıb, əhaliyə yedirdir. Ona görə də şişə taxılan dönərin içərisi çiy qalır və heyvan xəstəliyi əhaliyə yayılır. Bu problemi Azərbaycanda həll etmək istəyirik. Qanuni dönər hazırlayan müəssisələrin sertifikatları olur. Biz metronun "Elmlər Akademiyası" stansiyasının yaxınlığında kiçik süjet çəkdik. Orada hücum edib kameranı sındırdılar. Bu zaman gördük ki, dönərxanalar bir çox şirkətlərdən ət alırlar və oradaca çəkib əhaliyə verirlər. Bəzilərində malın sertifikatı var. Ancaq təxminən 70 faizində sertifikat görmədik. Biz onlara qarşı mübarizə aparacağıq. İş aparacağıq ki, 100-lərlə dönər istehsal edən müəssisələr açılsın, onlar şok dondurmadan keçirilsin. Belə olarsa, açıq rəqabət də olar. Nəticədə iki müəssisə deyil, 10-larla müəssisə olar ki, bu da ümumi işin faydasıdır. 3 il öncə müvafiq qurumlar dönərin standartını hazırlayıb. Həmin standarta uyğun olaraq dönərlər satılmalıdır. Bu işdə gözləyirik ki, bizə Qida Təhlükəsizliyi Agentliyi kömək edəcək".








❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Bakı Lift İdarəsinin rəisinin "ailə işi" məhkəmədə

## Nərimanov Rayon Məhkəməsində Qüdrət Şükürovun keçmiş kürəkəninin işi üzrə məhkəmə başlayır; Elşən Əsgərlinin atası "baş liftçi"nin korrupsiya əməllərini araşdırmağa çağırıb

**Bakı Lift İdarəsinin rəisi Qüdrət Şükürovun adını yenidən mətbuatın gündəminə qaytaracaq məhkəmə prosesi başlanır. Aprelin 13-də Nərimanov Rayon Məhkəməsində hakim İslam Qurbanovun sədrliyi ilə Qüdrət Şükürovun kürəkəni Elşən Əsgərli və dostları Azər Nəsibov, Nuray Bayramlının işi üzrə hazırlıq iclası keçiriləcək.**





Elşən Əsgərli



Qüdrət Şükürov

İttiham aktında yazılanlara inansaq, Elşən Əsgərli keçmiş arvadı, Aysel Şükürovanın indiki əri Oktay Əhmədova qarşı xuliqanlıq edib. İttiham aktında yer alan məlumatlara görə, o, xuliqanlıq edərkən dostları Azər Nəsibov və Nuray Bayramlı yanında olublar. 7 yanvar 2017-ci il tarixdə Nərimanov rayonu, 2-ci Sülh döngəsi küçəsində yerləşən avtomobil dayanacağında baş verən mübahisə zəminində Oktay Əhmədova zor tətbiq edildiyi qeyd olunur.

Elşən Əsgərlinin atası Rafael Əsgərov deyir ki, əslində döyülən də, iş üzrə təqsirləndirilən şəxs statusuna gətirilən də onun oğludur. Sadəcə, Qüdrət Şükürov əldə etdiyi milyonların hesabına indiki kürəkənini zərərçəkənə, onun oğlunu, yəni keçmiş kürəkənini isə təqsirləndirilən şəxsə çevirə bilib: "Mənim oğluma qarşı 3 dəfə cinayət törədilib. Elşən Qüdrət Şükürovun qızı ilə boşanandan sonra öz uşağı ilə görüşmək istəyərkən onu bağa çağırmışdılar. Ona demişdilər ki, uşaq bağdadır. Elşən bağa gedəndə isə gözətçini öyrədib, ona hücum etdirmişdilər. Onda da gözətçini cəzalandırmaq əvəzinə, Elşəni günahlandırıb 500 manat cərimə etdilər. İkinci dəfə Oqtay və onun dəstəsi oğlum Elşəni metronun "Gənclik" stansiyasının yanına guya danışığa çağırıb onu beysbol bitası ilə döydülər. Sonra da maşının nömrələrini qopardıb aparmışdılar. Şikayət etdikdən sonra Oqtay maşının nömrələrini yol polisinə təhvil vermişdi. Amma indiyə qədər Nəsimi rayonu ərazisində baş verən hadisənin şahidləri dindirilməyib. Hadisənin baş verdiyi yerdə olan kameraların görüntüləri ortaya qoyulmayıb. İşi Pərviz adlı müstəntiq aparırdı. Ondan soruşuruq ki, niyə hadisə yerində olan kameraların görüntüləri ortaya qoyulmur? Deyir ki, guya kameralar işləməyib. Həmin işi faktiki olaraq dayandırıblar. Qüdrət Şükürov mənə özü deyib ki, Elşəni həbs etdirəcəyəm. Bu adam açıq-aşkar deyir ki, sizdən qisas alacağam. Çünki siz mətbuatda mənim haqda danışandan sonra korrupsiya idarəsi məndən 10 milyon pul alıb. Bunun qisasını sizdə qoymayacağam".

**Elşən Əsgərlinin vəkili Ceyhun Yusifov** "Yeni Müsavat"a açıqlamasında deyib ki, Nəsimi və Nərimanov rayonları ərazisində müvəkkilinə qarşı 2 ayrı-ayrı cinayət törədilib: "Tərəflər arasında Nərimanov rayonu ərazisində qarşılıqlı mübahisə olub. Elşən Əsgərli əslində hər dəfə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Elşənlə Oktay mübahisə edərkən onun dostları yolla keçirmişlər. Tanımadıqları şəxsin Elşənin üstünə yeridiyini görüblər. Onlar tərəfləri sakitləşdiriblər. Bu gün həmin şəxslər də Elşənlə bərabər istintaqa cəlb edilib və məhkəmə qarşısına çıxarılırlar. Əslində Elşən bu gün məhkəmə qarşısında təqsirləndirilən şəxs qismində deyil, zərərçəkən qismində çıxarılmalıdır. Nəsimi rayonu ərazisində Elşən Əsgərlini vəhşicəsinə döyüblər. Onu döyənlərə Qüdrət Şükürovun indiki kürəkəni Oqtay Əhmədov rəhbərlik edib. Maşınının nömrə nişanlarını belə açıb özləri ilə aparıblar. Lakin Baş Polis İdarəsinin İstintaq İdarəsində işə obyektiv yanaşılmayıb. Nəsimi rayonu ərazisində Elşən Əsgərlinin döyülməsindən sonra məhkəmə tibb ekspertizası onun bədəni üzərindəki xəsarətləri fiksə edib və dərəcəsi haqda istintaq orqanına müvafiq rəy verib. Çox təəssüf ki, bu günə qədər həmin işin icraatı heç bir əsaslı səbəb olmadan dayandırılıb. Elşən Əsgərli həmin iş üzrə zərərçəkən olduğu bir vaxtda Nərimanov rayonu ərazisində Oktay Əhmədov yenidən onunla qarşılaşıb və xəsarət yetirib. Hesab edirəm ki, məhkəmə işə obyektiv baxacaq və hazırlıq iclasında işi ibtidai istintaqa qaytaracaq".

**Elşən Əsgərlinin atası Rafael Əsgərov** Baş Prokurorluğa, Dövlət Təhlükəsizlik Xidmətinə, Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət edərək Qüdrət Şükürovun korrupsiya əməllərini araşdırmağa çağırıb. Rafael Əsgərov özünün və ailə üzvlərinin məmur özbaşınalığının qurbanı olduğunu bildirərək, hüquq-mühafizə orqanları və ölkə rəhbərliyindən kömək istəyir.

Rafael Əsgərov deyir ki, rəsmi maaşı cəmi 510 manat olan Qüdrət Şükürovun Bakıda, İstanbulda, Dubayda dəyəri milyonlarla ölçülən varidatı var. Onun sözlərinə görə, Bakı Lift İdarəsi dövlət büdcəsindən bu quruma ayrılan 15 milyon manatın təqribən yarısını mənimsəyib. Qüdrət Şükürov bunun üçün Moskvada Markaryan adlı bir erməni ilə işbirliyinə gedib. Rafael Əsgərov bildirib ki, Qüdrət Şükürov liftlərin qiymətini "şişirdərək" rəsmiləşdirir və dövlət büdcəsindən milyonlarla manatı ələ keçirir. Ucuz qiymətə keyfiyyətsiz liftlər alınaraq Bakıda binalarda quraşdırılır: "Qüdrət Şükürov erməni Markaryanla birləşərək Azərbaycanın milyonlarla pulunu mənimsəyib. Dövlət büdcəsində milyonlarla manat lift istehsalçısının hesabına köçdükdən sonra, Qüdrət Şükürov oradan "otkat" alır. Mən özüm onun "Azəriqazbank"ın filialı vasitəsilə bu "otkatı" necə aldığının şahidi olmuşam. İstintaqa dəvət olunsam, bu haqda ətraflı məlumat verəcəyəm".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

**11 apreldən sonra ölkə müxalifətinin uzunmüddətli böhran yaşayacağı əvvəlcədən məlum idi. Belə ki, keçirilən prezident seçkilərində qalib gələcək şəxsin prezidentlik müddəti 7 il olacaqdı. Azərbaycanda növbəti prezident seçkiləri 2025-ci ildə keçiriləcək.**

# Müxalifətinin son şansı - 2020-ci il...

## Əli Əliyev: "2 yolumuz var..."



Bütün bunları bilə-bilə ölkə müxalifəti ya özünü proseslərdən kənarda qoyaraq boykot yolunu tutdu, ya da proseslərdə aktiv iştirak edə bilmədi. Nəticədə daha bir tarixi şansı qaçıraraq gözlərini 7 il sonraya dikdi. Demokratik düşərgənin şanslarının tamam itdiyini demək də olmaz. Çünki 2020-ci ildə Azərbaycanda parlament seçkiləri olacaq. Ölkə müxalifətinin prezident seçkilərindən daha çox qanunverici orqanın seçkilərinə diqqət ayırdığının zaman-zaman şahidi olmuşuq. Təsadüfi deyil ki, müxalif camiə yalnız bir dəfə Milli Məclisə keçirilən seçkiləri boykot edib, o da 2015-ci ildə. Yəni 125 yer olduğu üçün müxalifətin say etibarilə azlıq təşkilat etsələr də, parlamentdə təmsil olunmaq istəkləri daim mövcuddur. Bu baxımdan iki il sonrakı seçkilərdə demokratik düşərgənin indidən iştirak ehtimalları yüksək görünür. Necə bir nəticə qazanacaqlarını isə, indidən proqnozlaşdırmaq çətindir. Çünki həmin seçkilərə 2 il yarım qalır ki, bu müddətdə bir çox şeylər dəyişə də bilər.

**VİP sədri Əli Əliyev** ümidsiz deyil. O, hesab edir ki, hər an müxalifətin iqtidarı üstələmək perspektivləri yarana bilər: "Müxalifətin böhranı obyektiv proseslərlə bağlı olmadığı üçün proseslərin həllini də obyektiv müstəvidə axtarmaq bizi yanlışa yönəldər. Azərbaycanda siyasi inkişafın qarşısına sədd çəkilib. Hakimiyyət partiyası YAP, daha çox təkpartiyalı sistemə bənzər siyasi düzən formalaşdırıb. Çoxpartiyalılıq yalnız formal mahiyyət daşıyır. Hakimiyyət əsas rəqiblərini fəaliyyət sərbəstliyindən, maliyyə imkanlarından, kommunikasiya vasitələrindən, texniki infrastrukturdan məhrum etdiyindən müxalifət daha çox dissidentliklə məşğuldur. Ölkəmiz siyasi məhbus sayına görə dünyanın "aparıcı" dövlətlərindəndir. Belə şəraitdə yox olmamaq, hakimiyyəti rahatsız şəkildə tonusda saxlamağın özü müxalifətimizin aktivinə yazılacaq faktdır. Belə şərait tək bizdə deyil. Yəni müxalifətin böhranı, olmaması, qeyri-leqal mövcudluğu avtoritar cəmiyyətlər üçün xarakterik terminlərdir. Şimali Koreyada müxalifət heç yoxdur. Misirdə prezident seçkilərini bir neçə il əvvəl aparmış "Müsəlman qardaşları" builki seçkilərdə heç görsənmədilər, bir neçə ilə "əridilər". Bütün təhdidlərə rəğmən Azərbaycanda müxalifəti böhranlı qiymətləndirirsinizsə, deməli, hələlik hər iş pis deyil. Bu sırada müxalifətin görməli olan işlərini də demək gərəkdir. Müxalifətin pərakəndəliyi hakimiyyətin əlini gücləndirən faktordur. Prezident seçkilərində dağınıqlıq müxalifətin müqavimət potensialını zəiflədən hal idi. Təəssüf ki, prezident seçkiləri ötdü. Bundan sonrakı mərhələ düzgün qiymətləndirilməlidir. Fikrimcə, parlament seçkiləri təşkilatlanmaq üçün zəmin yaradır. Müxalifətdaxili anlaşmaya nail olunmalıdır. Məndə olan məlumata görə, hakimiyyətin ən çox narahat olduğu iş məhz müxalifətin inteqrasiyasıdır. Bir halda ki, rəqib bundan çəkinir, deməli, zəifdir. Bundan istifadə etməyi bacarmalıyıq".

Partiya sədri prezident seçkiləri kimi parlament seçkilərinin də önə çəkilə biləcəyini istisna etmir: "Fikrimcə, parlament seçkiləri də önə çəkilə bilər, seçkilərin 2020-ci ilə qalacağına inamım azdır. Bütün məsələlər hakimiyyət daxilindəki proseslərlə bağlı olacaq. Əgər seçki o vaxta qalsa, mənə görə rəqabət iqtidar-müxalifət müstəvisində deyil, əsasən iqtidardaxili qruplararasında gedəcək. Təbii ki, bu günkü müxalif partiyalar da prosesdə olacaqlar, lakin çətir iqtidar qruplarının olacaq. Düşünürəm ki, maraqlı proseslər ərəfəsindəyik. 2 yolumuz varya hər iş donmuş vəziyyətdə saxlanılacaq və xarici faktorların təsirini gözləyəcəyik, ya da islahatlar aparıb özümüz millət kimi vəziyyətdən çıxmağa çalışacağıq. Prezident seçkiləri də daxil olmaqla, bu günə qədər hakimiyyətdəki mühafizəkar qanad islahatları tormozlaya, nüfuz çevrəsini qoruya bilir. Nə vaxta qədər gücləri çatacaq, söyləyə bilmirəm. Hər iş prezidentin iradəsindən asılı olacaq. Bir söz demək çətindir. Katalizator rolunu gərginləşən dünya-Rusiya münasibətləri oynaya bilər. Gərginlik maksimum həddədir. Azərbaycandan mövqe istəniləcək, hətta tələb həddinə də çata bilər. Balanslı siyasət erası sona yetməkdədir. Bu fonda beynəlxalq mahiyyəti də daşıyan iqtidar qrupları toqquşmaqda davam edəcək. Seçkidən sonra bu proses yeni yön alacaq. Hətta elə gedişat ola bilər ki, müxalifətin çəkisi və perspektivi iqtidarı da üstələyə bilər. Bu səbəbdən 1 ay gözləmək lazımdır. Prezidentlik müddətini yeniləmiş prezident İlham Əliyevin andiçmədən sonra ilk addımlarını gözləmək lazımdır. Siyasi həyatımızın axarı bu addımlardan, üstəgəl, beynəlxalq amillərin necəliyindən asılıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Ermənilərə qarşı şok plan: Sərkisyana ömürlük hakimiyyət hazırlanır

## İşğalçı ölkəni daha fəlakətli mərhələdən 4 gün ayırır; Serj Sərkisyan haqda əvəzolunmazlıq mifinin yaradılmasında əsas hədəf - rejimə "ikinci nəfəs" və SOS siqnalları; erməni nəşri: "Ölkəyə şəxsiyyətə pərəstişi qaytaran Sərkisyan ilk prezidentdir ki, onun dövründə ərazi itirmişik..."

**4 gündən sonra - aprelin 17-də Ermənistan parlamenti özünün fövqəladə toplantısında yeni baş nazir təyinatına baxacaq. Ölkənin prezidentindən də üstün, əsas şəxsi sayılacaq bu posta, hələ ki, bir iddiaçı var - artıq sabiq prezident sayılan Serj Sərkisyan. Əksər müşahidəçilərə görə, parlamentdə çoxluqda olan hakim qüvvə üçün öz namizədinin qələbəsini təmin eləmək hər hansı çətinlik törətməyəcək. Xüsusən də buna Rusiya öz "dobro"sunu artıq veribsə...**



Sərkisyanın bu dəfə baş nazir qismində ölkə sükanı arxasında durması isə o deməkdir ki, "Qarabağ klanı" daha 5 ilə hakimiyyəti öz əlində saxlayacaq. 1998-ci ildə hakimiyyəti zorla ələ keçirmiş bu klan, korrupsiyalaşmış rejim (Robert Köçəryanın 5, Sərkisyanın 3 milyard dollar qanunsuz sərvəti olduğu deyilir - "YM") ikinci on illiyin tamamında özünə "ikinci nəfəs" qazanmış olacaq. Bu isə, çətin ki, erməni xalqının maraqlarına cavab versin. Çünki Köçəryan-Sərkisyan cütlüyünün 20 illik hakimiyyətinin acı yekunları ortadadır.

Onları sadalamağa lüzum yox. Üstəlik, hakim komandanın odioz fiqurları son vaxtlar, xüsusən də baş nazir seçkisi ərəfəsində öz şəriksiz lideri Serj Sərkisyan haqda əvəzolunmazlıq mifi yaratmaqdadırlar. Bu da təəccüblü deyil. 20 ildən sonra daha da varlanmaq ehtirası bunu diktə edir. Hakimiyyəti əldə saxlamaq, onun ömrünü uzatmaq üçün ən "təsirli" inandırma vasitələrdən biri də budur - əvəzolunmazlıq mifi.

*****

"Serj Sərkisyanın 10 illik hakimiyyəti Ermənistan daxili siyasi həyatına şəxsiyyətə pərəstişi qaytardı. Bu, əslində məktəb otaqlarında Sərkisyanın portretlərinin asılmasından başlamışdı. Bütün bunlar da öz növbəsində ona gətirdi ki, SSRİ dağılandan sonra ilk dəfə Ermənistan prezidenti postunu tutan şəxs öz hakimiyyətini uzatmaq üçün konstitusiyanı dəyişdi və partiyası tərəfindən əvəzolunmaz şəxs elan olundu".

"Yeni Müsavat"ın məlumatına görə, bu barədə 1 in.am erməni nəşrindəki məqalədə deyilir. Yazıda daha sonra bildirilir: "Sərkisyanın əvəzolunması haqda tezis əvvəlcə onun hakim Respublikaçılar Partiyasının rəhbəri postunda əvəzolunmazlığı ilə məhdudlaşırdı. Ötən ilin dekabrında parlamentin vitse-spikeri, partiyanın katibi Eduard Şarmazanov bəyan elədi ki, "kimin xoşuna gəlsə də, gəlməsə də Serj Sərkisyan partiya üçün əvəzolunmaz şəxsdir". Bu ilin fevralında isə ofşor qalmaqallarının iştirakçısı, Panama sənədlərinin "qəhrəmanı" Tiqran Poqosyan öz növbəsində Sərksiyanın əvəzolunmazlığını bəyanladı. 2018-ci ilin martında analoji bəyanatla hakim partiyanın daha bir parlaq nümayəndəsi, Sünik vilayətinin keçmiş qubernatoru Surik Xaçatryan çıxış elədi. Onun sözlərinə görə, ötən 30 il göstərib ki, Serj Sərkisyan əvəzolunmazdır. Beləcə, konstitusiya dəyişikliklərindən keçən cəmi iki il ərzində hakim partiyaya Sərkisyanın əvəzedilməzliyini doqmaya çevirmək müyəssər olub. Bu doqmaya əsasən, Serj Sərksyan yeganə dövlət xadimidir ki, Ermənistanın varlığının əsas qarantı ola bilər. Apreli 7-də isə "Ermənistan" teleşirkəti Sərkisyan haqda efirdə 80 dəqiqəlik sənədli film nümayiş etdirdi. Sənədli filmdən daha çox seçkiöncəsi reklamı xatırladan bu filmdə də Serj Sərkisyan Ermənistanın təhlükəsizliyinin əsas qarantı kimi təqdim olunur. Guya ölkə az qala, təhlükəsizlik istehlakçısından təhlükəsizlik ixracatçısına çevrilib".

Nəşr daha sonra Sərkisyanın özünün də bu təqdimatında maraqlı olduğuna diqqət çəkib: "Onun özü martın 19-da tert.am-a müsahibəsində qeyd edib ki, baş nazir olmaq ehtimalı var, nədən ki, "ölkəyə daxili və xarici təhdidlər var ki, onlarla hesablaşmamaq olmaz". Halbuki Serj Sərkisyan ilk prezidentdir ki, Ermənistan onun dövründə ərazi itirib *(aprel döyüşləri zamanı işğaldan azad edilən ərazilər nəzərdə tutulur - "YM").* 2016-cı ilin aprel döyüşləri zamanı, onun prezidentliyinin 8-ci ilində Ermənistan mümkün hücuma kifayət qədər hazır olmadı. Geniş ictimaiyyəti narahat edən bir sıra məsələlər, o sırada orduda korrupsiya problemi ilə bağlı suallara isə 2016-cı ilin aprelindən indiyədək cavab verilməyib".

Məqalə hakim klana və onun başçısı Sərkisyana ünvanlı sarkostik ifadələrlə yekunlaşır: "Sərkisyanı Ermənistanın yeganə təhlükəsizlik qarantı, onun baş nazirliyini isə ölkəni daxili və xarici təhdidlərdən xilas etməyin yeganə şansı kimi təqdim eləmək - klassik avtoritar manipulyasiyadır. Bu manipulyasiya ölkə sükanı arxasında olan adamı əvəzolunmaz, onun gedişini isə təhlükəli edir. Bütün bunlar Serj Sərkisyanın şəxsiyyətinə pərəstişdən başqa bir şey deyil. Hədəf isə demokratiya prinsiplərinə zidd olaraq bir adamın əbədi hakimiyyətinə bəraət qazandırmaqdır".

*****

Əlavə edək ki, Ermənistanda bu qəbildən ekspert fikirləri son vaxtlar tez-tez səslənir. Həmçinin erməni lobbisi də Serj Sərkisyanın hakimiyyətdə qalmasına qarşıdır. Bu kimi etiraz və əndişələr isə əslində işğalçı ölkənin yeni, daha fəlakətli bir mərhələ ərəfəsində olduğunun anonsu, SOS siqnallarıdır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

## Bakıda ödəniş aparatı oğurlayanlar məhkəmə zalında həbs edildi

**Mağazadan ödəniş aparatı oğurlayan dəstənin məhkəməsi keçirilib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində oğurluqda təqsirləndirilən Cavid İsayev, Xəzər Hüseyov və Şahin Əlizadənin cinayət işi üzrə məhkəmə iclası başa çatıb.

Hakim Rahib Salmanovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, Cavid İsayev 3 il, Xəzər Hüseynov 2 il 6 ay və Şahin Əlizadə isə 4 il müddətinə azadlıqdan məhrum ediliblər.

X.Hüseynovla Ş.Əlizdə ev dustaqlığında olub. Məhkəmə onlar barəsindəki qərarı dəyişərək məhkəmə zalında həbs edib.

İttiham aktına əsasən, C.İsayev, X.Hüseyov və Ş.Əlizadə Bakının Binəqədi rayonu ərazisində yerləşən marketlərin birində olan "Milliön" ödəmə terninalını yarıb və içərisindən 200 manatdan artıq pulu oğurlayıblar.

Onlar izi itirmək üçün marketin təhlükəsizlik kamerasının yaddaş kartını da çıxarıblar. Amma yolda itiriblər. Daha sonra həmin şəxslər hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən saxlanılıb.

İstintaq dövründə bu şəxslərdən yalnız C.İsayevin barəsində həbs-qətimkan tədbiri seçilib.

**❑ İ.MURADOV,
Musavat.com**

## Ərinin ölümünün ildönümü günü qardaşı ilə birgə can verdi

**Goranboy rayonunun Qızılhacılı kəndində bacı və qardaşın ölümü ilə nəticələnən hadisənin təfərrüatı məlum olub.**

Lent.az xəbər verir ki, aprelin 10-da "Mercedes" markalı avtomobilə çırpılan "VAZ 2107"dəki şəxslər qəbiristanlıqdan qayıdırmış. Belə ki, bir neçə il əvvəl aprelin 10-da Qızılhacılı kənd sakini Cəmilə Məmmədovanın həyat yoldaşı vəfat edib. Bu səbəbdən də o, bacısı, gəlini və nəvəsi ilə birgə qardaşı Sahib Abdullayevin maşını ilə kənd qəbiristanlığına ziyarətə gedib. Ziyarətdən geri qayıdan ailə üzvləri kənd yolunda sürətlə hərəkət edən "Mercedes"in zərbəsinə tuş gəlib.

Bildirilir ki, Sahib Abdullayevin idarə etdiyi avtomobili vuran "Mercedes"in sürücüsü Elmar Tağızadənin sürücülük vəsiqəsi olmayıb. O, məktəbi yeni bitirib və hərbi xidmətə yola düşməyə hazırlaşırmış. Aprelin 13-də həbi xidmətə yollanmalı olan Elmar atasından xahiş edərək maşınını alıb və dostları ilə yola çıxıb. Onlar yolda digər dostlarının idarə etdiyi "Toyota Prado" ilə ötüşüblər. Ötüşmə zamanı "Mercedes" "Prado"ya sürtünüb və sürücünün idarəetməsindən çıxaraq yolun əks istiqamətinə keçib. Nəticədə avtomobil öz yolu ilə hərəkət edən "VAZ 2107"yə çırpılıb. Qəza vaxtı "Mercedes"in spidometri saatda 137 kilometr sürətlə hərəkət edirmiş.

Digər məlumata görə, qəza vaxtı "Mercedes"i Elmar deyil, digər dostu sürürmüş.

Qeyd edək ki, dəhşətli hadisə nəticəsində S.Abdullayev və sərnişinlərindən bacısı Cəmilə Məmmədova hadisə yerində ölüb. C.Məmmədovanın qızı, gəlini və nəvəsi isə ağır xəsarət alıb.

**Goranboy RPŞ tərəfindən araşdırma aparılır.**

## "Çudo Peçka" və "ÇP Aqro" MMC-lərinin təsisçisi Çingiz Cəlilovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib

**Musavat.com xəbər verir ki, işə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə baxılıb.**

Məhkəmədə şahid qismində Faiq Qəhrəmanov ifadə verib.

O bildirib ki, Çingiz Cəlilovu tanıyıb və onun adına kredit götürülüb. Daha sonra isə həmin kredit ödənilib.

Məhkəmədə məlum olub ki, "Bank Standard"ın nümayəndəsi qismində iştirak edən vəkil Azər Tanrıverdi prosesdə iştirak etmir. Nümayəndənin avtomobil qəzasına düşdüyü elan edilib. Onun səhhətində ciddi problem olmayıb. Amma məhkəmədə iştirak edə bilməyib.

Xatırladaq ki, Baş Prokurorluq iş adamının həbsi ilə bağlı rəsmi açıqlama yayıb.

Məlumatda bildirilir ki, müxtəlif hüquqi və fiziki şəxslərin adından bankdan kredit kimi aldığı külli miqdarda vəsaiti bankın vəzifəli şəxsi ilə birgə qulluq mövqeyindən istifadə etməklə təyinatından yayındıraraq şəxsi ehtiyacları üçün mənimsəyən şirkət rəhbərinin qanunsuz əməlləri barədə Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

**❑ İlkin MURADOV,
Musavat.com**

**Bu il martın 31-də itkin düşən Xəzər rayonu, Türkan qəsəbə sakini 1996-cı il təvəllüdlü Balabəy Azər oğlu Balabəyovun meyiti aşkarlanıb.**

# Meyiti dənizdən tapılan operatorla bağlı şok iddia

## Yaxınları: "Biz Balabəyin ölümündə işlədiyi YDM-in sahibindən şübhələnirik"



Bu haqda "Yeni Müsavat"a mərhumun qohumu Vüqar Əmirov məlumat verib. Bildirib ki, Balabəy Balabəyovun meyiti Bakı bulvarının ərazisində, dənizdə aşkar olunub.

"Biz Balabəyin ölümündə işlədiyi məntəqinin sahibindən şübhələnirik. Bəlkə də onu öldürüb meyitini dənizə atıblar", - deyə Vüqar Əmirov bildirib.

Balabəy Balabəyov martın 31-də evdən çıxaraq operator vəzifəsində çalışdığı Xətai rayonu, Günəşli qəsəbəsində yerləşən "Şah petrol" yanacaqdoldurma məntəqəsinə (YDM) iş yerinə getmişdi. B.Balabəyov itkin düşən gündən sonra onun yaxınları, valideynləri itkin düşməsində YDM sahibini günahkar bilirlər. Onların bir neçə gün əvvəl qəzetimizə verdikləri açıqlamadan sitat:

"Balabəyin atası Azər Balabəyov Xətai Rayon Polis İdarəsinin 35-ci polis bölməsində ərizə yazdı, göstərdi ki, Balabəyin itkin düşməsində günahkar Vidadi müəllimdir. Vidadi müəllim YDM-in sahibidir. Ora bir neçə mətbuat nümayəndəsi gedəndən sonra bizə yanacaqdoldurma məntəqəsindən zəng edib dedilər ki, gəlin kameralara baxın. Halbuki biz hadisə olan günü yanacaqdoldurma məntəqəsinin sahibi Vidadi müəllimlə görüşmüşdük. Ona dedik ki, imkan ver, şərait yarat, kameraların yaddaşındakı görüntülərə baxaq. İmkan vermədi. Bu müddətdə kameraların yaddaşını silə bilərdilər. Bizə Balabəy iş yerindən itkin düşən gün niyə kameraların yaddaşını göstərmədilər?"

Bunu itkin düşən Balabəy Balabəyovun yaxın qohumu Vüqar Əmirov "Yeni Müsavat"a demişdi.

**❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"**

## Faşist döyməli "zek"ə hökm oxundu-18 yaşı həbsxanada tamam olub

**Bakı sakininə bıçaq çəkərək telefonunu alan şəxsə hökm oxunub. O, daha əvvəl də 3 dəfə məhkumluq həyatı yaşayıb.**



Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində quldurluqda ittiham edilən 2000-ci il təvəllüdlü Seymur Osmanovun cinayət işi üzrə məhkəmə iclası başa çatıb. O, 18 yaşını həbsxanada tamamlayıb.

Prosesdə dövlət ittihamçısı çıxış edib. Prokuror S.Osmanovun 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

S.Osmanov son sözündə əməlindən peşman olduğunu, zərərçəkmişlə barışdığını söyləyib.

Məhkəmə müşavirədən sonra hökmü elan edib. Hökmə əsasən, S.Osmanov 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onun daha əvvəlki cinayət əməllərinə görə aldığı cəzalar da toplanaraq üzərində qəti olaraq 4 il azadlıqdan məhrumetmə cəzası saxlanılıb.

Qeyd edək ki, paytaxt sakini Ülvi Cuvarlı Akademik Həsən Əliyev küçəsi ilə hərəkətdə olan zaman naməlum şəxs onun qarşısını kəsərək bıçaqla hədələyib və mobil telefonunu əlindən alıb.

Zərərçəkən hadisə barədə yaxınlıqda xidmət aparan Nərimanov Rayon Mühafizə İdarəsinin əməkdaşlarına məlumat verib.

Cinayəti törədən əvvəllər də məhkumluq həyatı yaşayan Seymur Osmanov hadisə yerindən bir neçə yüz metr kənarda saxlanılıb və Nərimanov Rayon Polis İdarəsinin (RPİ) 16-cı polis bölməsinə təhvil verilib.



Onun quldurluq yolu ilə etdiyi mobil telefon və hadisə zamanı istifadə etdiyi bıçaq maddi sübut kimi götürülüb.

Seymur Osmanov ifadəsində deyib ki, zərərçəkmişi binanın həyətinə çəkib və dalaşıb: "Üstündəki pulu çıxartdı. Dedim ki, pul qalsın, telefonu çıxart. Elə oradan da mühafizə keçəndə başladı qışqırmağa. Qaçdım oradan. Bıçağı da blokda gizlətdim. Gəlib 5-ci mərtəbədə tutdular".

Seymur Osmanov Cinayət Məcəlləsinin 181.2.5-ci (quldurluq, silah və ya silah qismində istifadə edilən əşyalar tətbiq edilməklə törəldildikdə) maddəsi ilə ittiham edilib.

18 yaşlı S.Osmanov bədəninin müxtəlif nahiyyələrində döymələrə də diqqət çəkib. Onun əlində isə "faşist döyməsi" var. S.Osmanov "Zek" ləqəbi ilə də tanınırmış.

**❑ İ.MURADOV,
Musavat.com**

YENİ MÜSAVAT
N 79 (6968) 13 aprel 2018

**Suriyaya xarici müdaxilə mövzusu yenidən gündəmə gəlib. Qərb ölkələri və regional müttəfiqləri Bəşər Əsədin Duma rayonunda müxaliflərə qarşı kimyəvi silahdan istifadə etdiyini iddia edir. Hələlik isə kimyəvi silahın kimin istifadə etdiyi haqda dəqiq məlumat yoxdur. Ancaq bu vəziyyətin özü belə dünyanı bölüb.**

# Bəşər Əsədin 7 illik dirənişinin sirri

## Suriyadakı savaşda on minlərlə insanın ölümünə səbəb olan Bəşər Əsəd hakimiyyətini qoruyub saxlamasında hansı faktorların rolu olub?



Rusiya, İran və Çin kimyəvi silah ittihamlarının sübuta yetirilmədiyini və belə bir halda Suriyaya hərbi müdaxiləyə qarşı olduqlarını bəyan edib. Hətta ABŞ prezidentinin Suriya sahillərinə hərbi qüvvə göndərməsinə cavab olaraq ruslar da Suriyadakı qüvvələrini artırdıqları mesajını veriblər. Rusiya rəsmiləri Suriyanı atəşə tutan raketlərin və onların buraxıldığı nöqtələrin vurulacağını bəyan edib. Yəni Suriya 3-cü Dünya müharibəsinin başlana biləcəyi yerə çevrilib. Dünyanın böyük gücləri bu ölkədə indi faktiki olaraq qarşı-qarşıya gəliblər.

**Əcəba nədən? Suriyanı və onun hazırkı hakimiyyətini, konkret olaraq Bəşər Əsədi bu qədər qoruyub saxlayan və hətta dünya müharibəsinə səbəb ola biləcək amil nədir? Doğrudanmı, Bəşər Əsəd bu qədər güclü və vazkeçilməzdir? Suriya hakimiyyətinin 7 il davam gətirməsi və arxasında bu qədər gücün dayanmasının səbəbi nədir?**

Ötən ay Suriyada hadisələrin başlamasının 7 ili tamam oldu. 2011-ci il martın 15-də ölkənin cənubunda Dəra şəhərində bir neçə məktəblinin divarlara hökumət əleyhinə şüar yazması ilə başlayan hadisələr hələ də davam edir. Ancaq ilk vaxtlarda hər şey fərqli idi. Suriyada etiraz aksiyaları ilə başlayan inqilab tezliklə daxili müharibəyə çevrildi və tökülən qanlar həndəsi ölçüdə çoxaldı. O zaman dünyada Bəşər Əsədə münasibət birmənalı idi. Hər kəsə aydın idi ki, Əsəd davam gətirə bilməyəcək. Hakimiyyətdən sürətli qopmalar, ordu generallarının, hökumət nazirlərinin müxalifətin tərəfinə keçməsi Əsəd rejiminin devrilməsinin yaxında olduğunu göstərirdi.

Ancaq Tunisdə Zeynalabidin bin Əli 1 ay, Misirdə 30 illik diktator Hüsnü Mübarək 3 həftə, Liviyanın 42 illik diktatoru, böyük sərvətə və gücə malik Qəzzafi 7 ay, Yəmənin "hakimi-mütləqi" Əli Abdullah Salehi isə bir il tab gətirə bildi. Ancaq Bəşər Əsədin taleyi fərqli oldu. Yəni ən azı bu gün baxdıqda digər diktatorlar kimi devrilmədi və ya qaçmadı. Baxmayaraq ki, hələ də mediada onun qaçması xəbərlərinə rast gəlmək olur.

Bəşər Əsədin Suriyada qalması və hakimiyyətini qoruya bilməsində bir sıra amillərin rolu var. Bunlar, heç şübhəsiz ki, daxili və xarici amillərdir. İlk növbədə qeyd etmək lazımdır ki, Suriya ordusu nə Liviyadakı kimi dağılmadı, nə də Misir və Tunisdə olduğu kimi rejimdən üz çevirmədi. Bir neçə min əsgər və hərbçinin ilk günlərdə ordudan ayrılması nəzərə alınmazsa. Suriya ordusu bütövlükdə indi də hökumətin yanındadır, Bəşər Əsədə sadiqdir. Halbuki iddiaların əksinə, Suriyada məzhəb qarşıdurması olsaydı, məntiqlə 80-90 faizinin sünni əhalidən təşkil olunduğu ordu Əsəddən imtina etməliydi. Ancaq olmadı.

İkinci mühüm amil ölkə müvazinətini itirmədi. Suriya burjuaziyası, iqtisadi sektor, hətta Hələb kimi 320 tekstil fabriklərinin olduğu sənaye mərkəzlərinin dağılması belə burjuaziyanı hökumətə qarşı çevirmədi, əks halda indiyə qədər Əsəd çətin davam gətirərdi. Bundan başqa, müharibənin davam etdiyi 7 il ərzində Suriya ərazisində mobil rabitə, internet və digər zəruri kommunikasiya, rabitə və digər zəruri təchizatlar davam edib. Burada həm də xarici dəstəyin rolu oldu.

İran və Rusiya Bəşər Əsəd hakimiyyətinə təkcə silah və hərbi yardım deyil, eyni zamanda maddi yardımlar etdi. Təbii ki, ərəb coğrafiyasından da Dəməşqə gizli yardımların olması labüddür, amma bunlar hələlik açılmayıb.

Və nəhayət, Suriyada hakimiyyət dəyişikliyinin qarşısını alan önəmli faktorlardan biri də əsasən xarici ölkələrdən göndərilən silahlılar oldu. Məhz bu cür radikal, nəzarətdən kənar silahlı təkfirçi qruplar Suriyada tez bir zamanda zorakılıqları ilə məşhurlaşdılar. Kütləvi edamlar, qətllər, zorakılıqlar, baş kəsmək və digər dünyanı dəhşətə gətirən olaylar *(bu hadisələrin videogörüntüləri məqsədli olaraq çex tez bir zamanda dünyaya yayılırdı)* həm Suriyada, həm də dünyada Suriya olaylarına və Bəşər Əsədə münasibəti dəyişdi. Təsadüfi deyil ki, Suriya böhranının ikinci ilində artıq Əsəd arxayın şəkildə xarici KİV-lərə müsahibə verərək ölkəsində terrora qarşı mübarizə apardığını bəyan edirdi.

Bütün dünyada islamçı radikalları Suriyaya gəlməyə həvəsləndirənlər, onları maliyyələşdirənlər, onlara yer verib hazırlıqlarına dəstək olan dövlət və qurumlar əslində bu ölkədə üsyanın məcrasını dəyişdilər və nəticə etibarilə Suriya xalqına qənim kəsildilər. Artıq 50 ildir dünyəvi rejimdə yaşayan, zəngin etnik və dini mozaikası olan Suriyada şəriətçi islamçıları heç də hər kəsin sevmədiyi məlum idi. Nəzərə almaq lazımdır ki, Suriya əhalisinin 65-70 faizə qədəri sünni, 12-15 faizə qədəri şiə-ələvi (Nusayri), 15 faizə qədəri xristian, yerdə qalanı dürzilər, ermənilər və sair təşkil edir. Yəni bu qədər qarışıq və fərqli qrupların yaşadığı ölkədə böyük çoxluğun radikal islamçıların dəstəklənməsi mümkün deyil və bu səbəbdən də əslində Suriyada cihad fətvaları, şəriət sistemi qurmaq çağırışları bir mənada Bəşər Əsədin xeyrinə işlədi. İnsanlar dünyəvi diktatura rejimi ilə radikal şəriət rejimi arasında seçim edərək üstünlüyü köhnə rejimə verdi. Yəni əslində Suriyada cihad fətvaları Bəşər Əsədə xidmət etdi.

Beləliklə, xarici dəstək, radikal qruplar və ordunun bağlılığı Bəşər Əsədi qorudu və qorumaqda davam edir.

❑ **Kənan Rövşənoğlu,**
**"Yeni Müsavat"**

# Məscid dağıdan Ermənistana İslam ölkəsindən... təbrik məktubu

## Birləşmiş Ərəb Əmirlikləri rəhbərliyindən müsəlman həmrəyliyinə xələl gətirən addım; politoloq: "Lobbi öz işini görür..."

**Ötən il kütləvi saxtalaşdırma yolu ilə Ermənistan parlamentində çoxluq əldə edən hakim Respublikaçılar Partiyasının "seçdiyi" yeni prezident Armen Sərkisyanı təbrik edənlər arasında İslam ölkələrinin təmsilçiləri də var. Belə ki, Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanın prezidenti vəzifəsinə başlaması münasibətilə Armen Sərkisyana Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ali rəhbərliyindən də təbrik ünvanlanıb.**



Bu barədə Moderator.az "KarabakhTV"yə istinadla xəbər yayıb. Məlumata görə, BƏƏ prezidenti Xəlifə ibn Zayd Əl Nahayyan, Dubay əmiri, baş nazir və vitse-prezident Məhəmməd ibn Rəşid əl-Maktum, BƏƏ Silahlı Qüvvələri Ali Baş Komandanının müavini Məhəmməd bin Zeyd Əl Nahyan və başqaları erməni prezidenti təbrik edən müsəlmanlar (!) sırasındadır.

Hər halda təəssüf doğuran faktdır. Söhbət bir müsəlman ölkənin - Azərbaycanın ərazilərini on illərdir işğal altında saxlayan, məscidlərini dağıdan, qəbiristanlıqlarını təhqirlərə məruz qoyan ölkənin prezidentindən gedir. Özü də yeni prezident də bəyan edib ki, Qarabağla bağlı siyasət dəyişilməz olaraq qalacaq. Belə olan halda ərəb ölkəsinin rəhbərliyinin davranışları anlaşılan deyil. Xatırladaq ki, Azərbaycan 1991-ci ilin dekabr ayında İslam Konfransı Təşkilatına üzv olub. Bu dövrdə təşkilat dəfələrlə Ermənistanın işğalını pisləyən bəyanat qəbul edib, Xocalı soyqırımını tanıyıb. BƏƏ isə qurumun üzvü olaraq bütün bunları unudaraq, İrəvanla təmaslara can atır.

Azərbaycan prezidenti İlham Əliyev keçən il "məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz", - deyə İslam ölkələrinə müraciət etmiş, onları işğalçı ölkəyə yatırım qoymamağa çağırmışdı. Düzdür, bəzi İslam ölkələri hələ də Ermənistanla diplomatik əlaqələr qurmaqdan imtina edir. Ancaq ortada mənfi nümunələr də var - BƏƏ kimi. Hansı ki, keçən il, elə aprel ayında Azərbaycan nümayəndə heyətinin Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfəri çərçivəsində Dubayda Azərbaycan Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 6-cı iclasında bir sıra mühüm məsələləri müzakirə etmişdilər, razılaşmalara imza atmışdılar.

Bundan əvvəl ayrı-ayrı ölkələrin də işğalçıya qucaq açması faktları geniş əks-səda doğurub. Məsələn, ötən illərdə Səudiyyə Ərəbistanı kralı Salman ibn Əbdül-Əziz əl-Səud Ermənistanın müstəqilliyinin 24-cü ildönümü münasibətilə bu ölkənin keçmiş prezidenti Serj Sərkisyana təbrik göndərmişdi. Vəliəhd Məhəmməd bin Naif bin Əbdül-Əziz də erməni prezidentə təbriklərini çatdırmışdı. Halbuki Səudiyyə Ərəbistanı nümayəndələri dəfələrlə Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasətinə görə Ermənistanı bir dövlət kimi tanımadığını bəyan ediblər. Dəfələrlə də bildirilib ki, zəbt olunmuş torpaqlar azad edilməyənə qədər ermənilərlə əlaqələr bərpa olunmayacaq. İranın bir sıra addımları da etirazlara səbəb olub. İndi də BƏƏ "nümunəsi".

**Politoloq Arzu Nağıyev** "Yeni Müsavat"a bildirdi ki, ərəb şeyxlərinin Ermənistanla əlaqələr qurmasında əsasən biznes maraqları və erməni lobbisi mühüm rol oynayıb: "Məlumdur ki, Birləşmiş Ərəb Əmirliyinin prezidenti Xəlifə Əl Hahayyan Sərkisyanı təbrik edib. Yəni bunu bir protokol qaydasına riayət kimi də başa düşmək olar. Digər tərəfdən, BƏƏ Ermənistana sərmayə yatırmaqla bağlı əvvəllər də İrəvana şeyxlərin səfərlərini təşkil edib. Ərəb şeyxlərinin əsas tərəf müqabili erməni biznesmeni, Ermənistanda nüfuz sahibi olan Sarukyandır. Hansı ki, "Sarukyan"bloku adı altında seçkilərdə iştirak edirdi və şeyxlər də əsasən onun qonaqları olurlar. Ərəb şeyxləri öz səfərlərini həmişə bir dost səfəri kimi xarakterizə edirdilər. Yəni lobbi öz işini görür".

Ekspert qeyd etdi ki, bu proseslər əvvəllər İranla da baş verib: "Bu gün, demək olar ki, İranla həmin münasibətlər aradan qaldırılıb. Eyni zamanda qeyd etmək lazımdır ki, heç də bütün ərəb ölkələri işğalçı ölkə ilə bu şəkildə əlaqələr qurmur. Məlumdur ki, məhz Qarabağ münaqişəsinə görə Səudiyyə Ərəbistanı ilə Ermənistan arasında diplomatik münasibətlər yoxdur və bu dövlət dəfələrlə ermənilərin işğalçılıq siyasəti yürütdüyünü bəyan edib. Təbii ki, İslam Konfransı dövlətləri Azərbaycana dəstək olmalıdır və bu istiqamətdə Azərbaycan hakimiyyəti mühüm işlər görüb. Deməli, aparılan təbliğat və təşviqat işləri yetərli deyil. Eyni zamanda diplomatik missiyamız daha səmərəli fəaliyyət göstərməli və həqiqəti catdırmalıdır".

**Bəs Ermənistan ərəb şeyxlərini nəyi ilə cəlb edir ki, İslam həmrəyliyinə xələl gətirirlər?**

A.Nağıyev: "Burada söhbət dini həmrəylikdən getmir, əsas məsələ vəsait əldə etməkdir. Burada ermənilər əsasən kənd təsərrüfatı, turizm, sənaye, bir də birbaşa aviareyslər maraqlandırır. Bundan başqa, Suriyadan qaçan ermənilər üçün Yeni Hələb deyilən bir kvartalın yaradılması üçün tikinti işlərinə sərmayə qoymaq da maraqlandırır. Lakin bunların hamısı hələ ki, danışıqlardan o yana keçmir. Ermənilərin bu məsələləri belə böyütməsinin bir səbəbi də elə Azərbaycanla bu dövlətlərin münasibətinin pozulması istəyidir".

❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**

# Gün işığına həsrət qoyan gün eynəkləri...

## Satışda 3 manata da eynək var, 400 manata da - saxta malları necə tanıyaq?

**Göz insanın ən vacib orqanlarından biridir. Buna görə mövzu gözlər olduqda ona həssas yanaşmaq lazımdır. Ölkəmizdə günəşli havalar başladığı üçün gün eynəklərinə də tələbat artıb. İnsanların əksəriyyəti gözlərini günəş şüalarından qorumaq üçün artıq gün eynəklərindən istifadə etməyə başlayıb.**

Mütəxəssislərin qənaətinə görə, günəş şüaları gözdə katarakta və görmə mərkəzində "sarı nöqtə" xəstəliyi kimi görməni pozan xəstəliklərə səbəb olur. Hətta bəzən korluğa da gətirib çıxara bilir. Günəş şüaları gözdə yanma, quruluq, sulanma, işıqdan qıcıqlanma, göz qapaqlarını açmaqda çətinlik çəkmə kimi problemlərə də səbəb olur. Buna görə də gün eynəyindən istifadə vacibdir. Gün eynəklərinə tələbat artdığı üçün bu gün paytaxtın çox yerində - yol kənarlarında, optik mağazalarda, super marketlərdə bu malların satışına rast gəlmək mümkündür. Qiymətləri isə 5 manatdan başlayır.

**Bəs keyfiyyət necədir? Hər il insanları düşündürən bir məsələ olur, gün eynəyinin keyfiyyətli olduğunu, gözə zərər verməyəcəyini necə müəyyən etmək olar?**

Əksər insanlar baha qiymətə alınan eynəklərin daha keyfiyyətli və zərərsiz olduğunu düşünür. Bəzi insanlar isə bunun tam əksinə, optik mağazalarda qiyməti "əl yandıran" eynəklərin heç də hamısının keyfiyyətli olmadığı, tələblərə cavab vermədiyi qənaətindədir.

Gözümüzə zərər verməyəcək eynəkləri seçməyin yollarını, həmçinin qiymətlərlə maraqlanmaq üçün bir neçə eynək satılan məkanlara baş çəkdik. Daha ucuz eynək satışı həyata keçirilən "Diqlas" Ticarət Mərkəzinin çıxışında, yol kənarında sırayla bir-birindən fərqli görünüşdə eynəklər düzülmüşdü. Burada eynək seçən alıcılar da kifayət qədər vardı. Qeyd edilən məkanda 3 manata da eynək tapa bilərsiniz. Satıcı Cavad Səlimov deyir ki, onların satdığı ən ucuz eynəyin qiyməti 3 manat, ən bahalısı isə 30 manatdır: "Normal gün eynəkləridir. Əsas odur ki, gözünüzə gün düşməyəcək. Gün eynəyi 24 saat gözünüzdə qalmır ki, ziyanlı da olsun. Həm də insanlar gələndə eynəyin daha çox görünüşünə, dizaynına önəm verirlər. Elə gənclər olur ki, müxtəlif dizaynda 2-3 eynəyi birdən alır".






Eynəklərin keyfiyyətini sübut edəcək hər hansısa bir sertifikat olub-olmadığını, həmçinin bu eynəklərin doğrudan da gözləri günəş şüasından qoruduğunu sübut edəcək hansısa testin mövcudluğunu soruşduqda isə satıcı bunların olmadığını dedi: "Mən satıcıyam, eynəkləri mən gətirməmişəm, sadəcə olaraq, satıram. Əgər belə bir sertifikat varsa da, mən bilmirəm".

Təəssüflə qeyd etməliyik ki, bu cür cavabla nəinki yol kənarındakı eynək satışı köşklərində, hətta mağaza və optik dükanlarda da rastlaşdıq. "Həzi Aslanov" metrostansiyası yaxınlığında eynək satışı ilə məşğul olan optik dükanın satıcısı Nübar Quliyeva isə eynəklərin qiymətinin 20 manatdan başladığını dedi. Şüşələrinin doğrudan da günəş şüasından qoruyub-qorumadığını soruşduqda isə "pis eynəklər deyil" cavabını aldıq: "Bəzi eynəklərin testi var. Amma o eynəklərin qiyməti 35 manatdan başlayır. 20 manatlıqlarda isə test yoxdur. Gözlərin zəif olub-olmadığını ölçüb ona uyğun eynəklər də təklif edirik".

Göz müayinəsi edəcək şəxsin göz həkimi olub-olmadığını soruşduqda isə "göz həkimi deyil, amma uzun illərdir bu işlə məşğuldur, yəni anlayışı var" cavabını aldıq.

Bu isə o deməkdir ki, hansısa optik mağazada gözlərinizi müayinə etdirmək fikriniz varsa, bu barədə ciddi düşünün.

Daha sonra yolumuzu bahalı, brend malların satıldığı Nizami küçəsində yerləşən eynək mağazasından saldıq. Burada ən ucuz eynəyin qiyməti 70 manat, ən bahalısı isə 400 manat idi. Düzdür, burada bahalı eynəklər olduğu üçün alıcı barmaqla sayılacaq qədər az idi. Satıcı Murad Əliyevin sözlərinə görə, onlarda eynəklərin orijinal və keyfiyyətli olduğunu sübut edəcək sertifikat da var, testlər də: "Düzdür, alıcılarımız çox azdır. Amma insanlar unutmasınlar ki, ucuz eynək alıb gözlərinin müalicəsinə sonradan 5 o qədər də pul qoyurlar. Təbii ki, əgər müalicə mümkündürsə".



Apardığımız müşahidələr zamanı isə diqqətimizi çəkən bir nüans da ucuz eynəklərin üzərində "Gucci", "Dior" kimi brendlərin adlarının olması idi. Qeyd edək ki, bu brendlərin istehsal etdiyi eynəklərin qiyməti olduqca baha olur. Satıcılar bu brendlərin saxta variantlarının olduğunu və əksəriyyətinin də Çindən gətirildiyini bildirdilər.

Mütəxəssislər eynəklərin iki növ materialdan - plastik və şüşədən hazırlandığını bildirirlər. Şüşənin də müxtəlif növləri var - adi, hamelion və s. Plastik materialdan olan eynəklər yüngül və rahat olmasına baxmayaraq, tez sınır. Ona görə də şüşədən hazırlanan eynəklər daha keyfiyyətli hesab olunur. Gün eynəkləri orta qurşağın tələblərinə cavab verən yay eynəkləridir. Gün eynəklərini əsasən üç qrupa ayırırlar. Kosmetik, gündən qoruyan adi və çox yüksək müdafiəli eynəklər. Bu eynəklər əsasən ultrabənövşəyi şüaları udan xüsusi materialdan hazırlanmalıdır. Gün eynəklərinin elə kateqoriyası var ki, xüsusi olaraq sürücülər, idmanın su və qış növləri ilə məşğul olanlar üçün nəzərdə tutulub. Bu, polyarlaşmış linzalı eynəklərdir. Onlar təkcə ultrabənövşəyi şüaları deyil, həm də islanmış yola, qar və suyun üzünə düşən işıq şəfəqlərini də neytrallaşdırırlar. Məhz belə eynəklərdən həm dənizdə, həm də qarlı dağlarda istirahət zamanı istifadə etmək olar. Yanlış seçilən gün eynəyi isə sizi, sözün həqiqi mənasında, gün işığına həsrət qoya bilər. Bu, ilk vaxtlar hiss edilməsə də, fəsadı bir müddət sonra özünü bürüzə verməyə başlayır. Ona görə də eynək seçərkən mütləq keyfiyyət testindən keçirilməli və ya sertifikat tələb olunmalıdır.

❑ **Günel MANAFLI,**
**Fotolar müəllifindir**

# Orbitə uçacaq 2-ci peykimiz pul gətirəcək, yoxsa...

## Ekspert deyir ki, dünyada yalnız özü peyk istehsal edən ölkələr bu işdən ciddi pul qazanır

**Hər il olduğu kimi, bu il də aprelin 12-si Ümumdünya Aviasiya və Kosmonavtika Günü kimi qeyd olundu. 57 il əvvəl bu tarixdə Yuri Qaqarin ilk dəfə kosmosa uçmuşdu. Bu münasibətlə aprel ayında Azərbaycanın ikinci geostasionar peyki "Azerspace - 2" nin buraxılası olacağı gözlənilirdi. Lakin sonradan peykin buraxılışının mayın 25-nə planlaşdırıldığı məlum oldu.**

Peykin buraxılışı ilə məşğul olan Fransanın "Arianespace" şirkətindən bildirilib ki, Peyk Cənubi Amerikanın şimal-şərqində yerləşən Kuru (Qvian Kosmik Mərkəzi) kosmodromundan Ariane 5 ECA raket daşıyıcısının köməyi ilə orbitə buraxılacaq. "Azerspace - 2"nin xidmət zonasına Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Afrika ölkələri daxil olacaq. Orbitdə istismar müddəti 15 il nəzərdə tutulan bu peyk həm də birinci telekommunikasiya peyki olan "Azerspace - 1"in orbitdəki ehtiyatı rolunu öz üzərinə götürəcək.

Xatırladaq ki, Azərbaycanın ilk telekommunikasiya peyki olan "Azerspace - 1" 2013-cü ilin fevral ayının 7-də (Bakı vaxtı ilə 8 fevral) Fransız Qvianasının Kuru kosmodromundan orbitə buraxılıb. Hazırda ölkədə şaxələnmiş şəbəkəyə malik bir sıra dövlət qurumları arasında peyk rabitəsi "Azerspace - 1" üzərindən təmin edilir. Yerüstü kabel şəbəkəsinin mövcud olmadığı ərazilərdə, məsələn, Xəzər dənizində üzən Azərbaycan gəmilərində və neft platformalarında peyk rabitəsi və internet xidməti bu peyk vasitəsilə aparılır. Hazırda peyk üzərindən Azərbaycan, türk, rus, ingilis və digər dillərdə, yerli və beynəlxalq səviyyəli, ümumilikdə 100-ə yaxın televiziya və radio kanalı yayımlanır.




"Azərkosmos" ASC-nin ilk peykin orbitə buraxılmasından bu vaxta qədər, yəni 5 ildə əldə olunan nailiyyətləri ilə bağlı hesabatında bildirilib ki, bu dövr ərzində ölkəmiz 72 milyon ABŞ dolları gəlir əldə edib.

**Bəs, may ayında orbitə buraxılacaq "Azerspace - 2" peyki Azərbaycana nə qədər gəlir gətirəcək?**

**İqtisadçı ekspert Natiq Cəfərli** mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb: "Peyklə bağlı aparılan əməliyyatları iqtisadi məntiqlə izah etmək çox çətindir. Çünki Azərbaycan kimi ərazisi qismən kiçik olan, hətta vahid ölkələr belə öz peyklərini ifadə etmirlər. Çünki iqtisadi cəhətdən çox səmərəsizliyə gətirib çıxarır. Bunun yeganə siyasi dividentləri var ki, Azərbaycan kosmosa peyk göndərir, inkişaf edir. Yəni bu məsələnin siyasi dividentləri iqtisadi dividentlərindən daha çoxdur. Çünki bildiyimiz qədər istənilən peykin orbitdə qalması maksimum 12 ildir. Bundan sonra onun istismar müddəti başa çatır və orbitdən çıxarılır. Azərbaycanın ilk peykinin təxminən 230 milyon dollara başa gəldiyini və onun hər il əməliyyat xərcləri üçün təxminən 10 milyon dollar xərcləndiyini nəzərə alsaq, iqtisadi cəhətdən onun səmərəli olacağını, qoyulan vəsaitin geri qaytarılacağını düşünmürəm və açığı bu, mümkün də deyil. Dünyada yalnız özü peyk istehsal edə bilən ölkələr bu işdən ciddi pul qazanır. Azərbaycan kimi 3-cü ölkələrə son istehsallı, yeni texnoloji üstünlüklərə malik peyklər satılmır. Çünki bu zaman özlərinə rəqib yarada bilərlər. Ona görə də peyk bazarında liderlik edən ölkələr, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, Çin və digərləri heç vaxt 3-cü ölkələrə son texnologiyalarını nə göstərmir, nə satmır, özləri istifadə edir və xeyli pul qazanırlar".

❑ **Xalidə GƏRAY,**
**Musavat.com**




Cümə söhbətləri

# Bəndəlik ruhiyyəsinin açarı

**Bismilləhir-Rahmənir-Rahim!**
**Allaha ibadət edən insanın ruhiyyəsi bir gün yuxarı, bir gün aşağı olur. Bir gün bəndəlik ruhiyyəmiz yuxarı səviyyəyə qalxır, bir gün aşağıya enir. Biz nə edək, hansı vasitələrdən istifadə edək ki, bəndəlik ruhiyyəmiz, mənəvi ruhiyyəmiz, Allaha ibadət ruhiyyəmiz yüksək olsun?**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Bu, istisnasız olaraq hər bir səmimi dindarı, Allah bəndəsini düşündürən məsələdir. Yaşından, məsləkindən, məşğuliyyətindən asılı olmayaraq hər bir iman əhlini ən çox düşündürən məsələ budur ki, nə edək ki, gündəlik həyatımızda mənəvi ruhiyyəmiz yuxarı olsun?

**Bəndəlik ruhiyyəsini artıran amillər**

Başadüşülən budur ki, bu, öz-özünə əmələ gələn mövzu deyil. Yəqin xüsusi bir çalışmalar olmalıdır ki, həmin mənəvi ruhiyyə insanda daim yuxarı həddə olsun. Bir neçə tövsiyə var ki, bunlara riayət etmək mənəvi ruhiyyənin yüksəlməsinə səbəb olur. İnsanın mənəvi ruhiyyəsinin yüksəlməsinə səbəb olan çox önəmli məsələlərdən biri - vaxtında qılınan namazdır. İnsanın mənəvi ruhiyyəsinin ali olmasına ən ciddi təsiri olan mövzulardan biri - namazın əvvəl vaxtda qılınmasıdır.

İkinci mühüm amil - o müstəhəblərdir ki, insana müsbət təsir qoyur. Vacibatlar belədir ki, istər müsbət təsir qoysun, istər qoymasın - bunlara əməl olunmalıdır. İnsan mütləq haramlardan çəkinməlidir və vacib ayinlərə əməl etməlidir. Burada birmənalılıq var.

Belə bir analogiya apara bilərik: biri xəstədir və adi sağlam insanın yediyi yeməyi yeyir, amma ona acı gəlir. Eləcə də, insan ola bilər ki, qəlbən xəstə durumda olsun, etdiyi ibadətlər onun ruhiyyəsini yüksəltməsin. Vacibatlar bu qida kimidir ki, insan bu qidanı mütləq şəkildə qəbul etməlidir - istər ləzzət versin, istərsə də verməsin.

Amma o müstəhəb əməllər ki, insan onlardan ruhiyyə alır, insana müsbət enerji, mənəvi güc verir - belə müstəhəb işləri həyata keçirmək lazımdır. Hansı müstəhəb işlər ki, insanı əksinə olaraq yorur və onu ürəklə etmir - müəyyən müddət onlardan fasilə saxlamaq lazımdır.

**İnsanın ünsiyyət və bağlantıları**

Üçüncü amil - Allah kitabı olan Qurani-Kərimlə ünsiyyətdir. Hər kəsin öz həddində, öz tutumunda gərək ki, Rəbbi ilə ünsiyyəti olsun. Allah Kitabı ilə ünsiyyət insanın bəndəlik ruhiyyəsini diri saxlayar.

Dördüncü amil - insanın Əhli-Beyt (ə) ilə bağlantısının olmasıdır. Əhli-Beytə (ə) təvəssül etmək insanda iman ruhiyyəsini artırar. İnsanın gün ərzində Əhli-Beytlə (ə), Məsumlarla (ə) bir rabitəsi olmalı, təvəssülü olmalıdır.

Bəndəlik ruhiyyəsini artıran beşinci mühüm amil - hər zaman dəstəmazlı olmağa çalışmaqdır. Bu halda olmağa çalışmaq, bu durumda olmağa qərar vermək lazımdır.

İnsanın bəndəlik ruhiyyəsini artıran ciddi amillərdən biri - ziyarətdir. İnsanın dünyadan getmiş möminləri, şəhidləri, alimləri ziyarət etməsi onun imanına çox böyük təsir qoyur. Nəhayətdə, insanın onun da son mənzili olacaq qəbiristanlığa baş çəkməsi - onun imanının artmasına səbəb ola bilər. Bu, insana onun öz ölümünü yada salacaq. Ölümü yada salan insan isə mütləq əbədi həyatda ona lazım olacaq azuqə barədə qayğılanacaq.

Yeddinci amil - mənəviyyat yükü olmayan məclisləri tərk etməkdir. Mənəviyyat yükü olmayan, boş, bihudə məclisləri tərk etmək insanı daha imanlı, təqvalı edə bilər. O məclislər ki, orada dünyaya vurğunluq aşılanır, orada olarkən insan əbəs işlərlə məşğul olur, orada Allah yad olunmur və onların heç bir mənəvi yükü yoxdur - insan o məclislərdən fasilə saxlamalıdır. Əgər fasilə saxlaya bilsə, bəndəlik ruhiyyəsi artar.

**Mütaliə vərdişləri**

Mütaliə, dərs öyrənmək, elmi araşdırmanın olması da insanın imanının güclənməsinə təsir qoyur. Nə həddə olursa-olsun, mömin beşikdən qəbrə qədər elm öyrənməli, öyrənməyə, biliyə can atmalıdır, mütaliə etməlidir. Bunsuz din yoxdur.

İmanı gücləndirən digər mühüm amil - minbər məclislərində iştirakdır. Moizə dinləmək, xütbə dinləmək insanın bəndəlik ruhiyyəsinin artmasına səbəb olur. Əhli-Beytin (ə) zikri olunan, onlar xatırlanan məclislərdə iştirak etmək insanın ruhiyyəsini xeyli yüksəldir. Mövlud, şəhadət tədbirləri və bütün bu kimi dini yaşadan mərasimlərdə, tarixlərdə iştirak etmək də insanın dindarlıq ruhiyyəsinin artmasına səbəb olar.

İnsanın dindarlıq ruhiyyəsini artıran önəmli amillərdən biri də günahdan çəkinməkdir. İnsan harada günahla sərhəddədirsə, orada dayanmalı və tələsməməlidir. Çünki tələsən zaman insanın günah etmək potensialı bir o qədər artır. Eyni zamanda günahdan tövbə ruhiyyəsinin olması da bunun içində olmalıdır.

Bir mühüm amil də uzun arzuları tərk etməkdir. Uzun arzularla bəndəlik ruhiyyəsi bir yerdə ola bilmir. Uzun arzuları tərk etmək bəndəlik ruhiyyəsinin artmasına təsir edir.

Növbəti bir amil isə mənəvi məkanlarda - camaat namazlarında, dualarda, mərasimlərdə iştiraka can atmaqdır. Bunun özü insanın mənəvi ruhiyyəsini artırır.

Yeri gəlmişkən, İmam Əlidən bu mövzuda nəql edilən hədisə toxunaq. Əziz İmam (ə) buyurur: "Mömin davamlı olaraq:

**1.** Allahı yada salar.
**2.** Çoxlu təfəkkür edər.
**3.** Nemətə şükür edər.
**4.** Giriftarlıqda səbirlidir".

**Mülayim, zirək, səxavətli, pəhrizkar...**

Yeri gəlmişkən, Məsumların (ə) möminin xüsusiyyətləri ilə bağlı buyuruşlarına diqqət edək.

Allahın Peyğəmbəri (s) möminin vəsfində buyurmuşdur: "Hərəkət və rəftarları mülayim və mehribandır, görüşü şirin..."

**Hər bir şeyin ən üstününü axtarır, xislətlərin ən dəyərlisini...**

Nifrət bəslədiyi kəsə zülm etmir və sevdiyi şəxsə görə günaha batmır.

**Xərci azdır, çox kömək və yardım edir...**

İşi çox yaxşı yerinə yetirir, sanki onu özü üçün görür.

Gözləri aşağı baxır.

Bağışlayan əli var, bir şey istəyəni boş geri qaytarmır.

Sözünü ölçüb-biçir və dilini lal edir...

Batili, hətta dostundan qəbul etmir və haqqı, hətta düşmənindən olsa belə, inkar etmir.

**Elmi ancaq bilməyə görə öyrənir və biliyi yalnız əməl etməyə görə əldə edir...**

Dünyapərəstlərlə rəftar edəndə - onların ən zirəngi, axirət axtaranlarla olanda - onların ən pəhrizkarıdır».

**Şükür, səbir, təmizlik, çalışqan...**

Möminin tanıtımı ilə bağlı digər buyuruşlarda da çox incə məqamlara rast gəlinir.

İmam Əli (ə) buyurub: "Möminin sevinci üzündə, kədəri qəlbindədir. Sinəsi hər şeydən genişdir (çox hövsələli və geniş ürəklidir). Nəfsi isə hər şeydən xardır. Özünü yuxarı tutmağı sevmir və şan-şöhrətə nifrət bəsləyir. Qəm-kədəri uzun, himmət və çalışqanlığı yüksəkdir...

Sükutu çoxdur və vaxtı boş keçmir. Şükür edən və səbirlidir. Fikrə dalıb və (başqaları ilə) dostluğunda möhkəm olmağa hərisdir. Mülayim və mehribandır. İradəsi çaxmaq daşından da möhkəmdir, amma bununla belə, quldan da həqir və xardır".

İmam Əli (ə) buyurub: "Mömin şadlıq və asayiş zamanı şükür edən, bəla və çətinlik zamanı səbirli, naz-nemət içində olan zaman isə qorxu içindədir".

İmam Əli (ə) buyurub: "Mömin öz qəlbini alçaq şeylərdən təmizləmiş kəsdir".

İmam Sadiq (ə) buyurub: "Mömin yaxşı və xərci-zəhməti az olan bir yardımçıdır. Yaşayışını yaxşı idarə edir və bir dəlikdən iki dəfə sancılmır".

İmam Səccad (ə) buyurub: "Möminin beş əlaməti var:

- xəlvət və təklikdə olanda pəhrizkar olmaq,
- yoxsulluq zamanı sədəqə vermək,
- bəlalar müqabilində səbirlilik,
- qəzəblənəndə həlimlik və
- qorxu olmasına baxmayaraq, doğruçuluq".

İmam Sadiq (ə) buyurub: "Mömin o kəsdir ki, gəliri halal və pak, əxlaqı gözəl, batini sağlam və düz olsun, malının artığını (ehtiyacı olanlara) paylasın və çox danışmaqdan çəkinsin".

**Allah-Təala bizləri möminlərdən qərar versin!**

**Ruhiyyəni artıran ən mühüm amil - vaxtında qılınan namazdır**

Əslində bütün bu xüsusiyyətlərin bazasında namaz durur. Namaz - bəndəliyin açarıdır. Və qeyd etdik ki, insanın bəndəlik ruhiyyəsinə təsir edən ən ciddi amil - vaxtında qılınan namazdır. Namazın vaxtında qılınması üçün bir neçə məsələ olmalıdır.

Ən əsaslardan biri budur ki, insan Allah hüzurunda olmasının fərqində olmalıdır. İnsan fərqində olmalıdır ki, Allahın vacib etdiyi namazın vaxtıdır və o da Allahın buyurduğu əmrini yerinə yetirir. İnsanın diqqəti özündə olmalıdır, öz durumunda təmərküzləşməsi olmalıdır.

Görün nə qədər proses olmalıdır ki, insan namazını vaxtında qılsın. Vaxtında qılınan namaz öz-özlüyündə bir çox məsələləri həll edir. Dəstəmazlı olmağı, Allahı xatırlamağı təmin edir, Allahın vacibatına diqqəti, təvəccönü artırır, insanı laqeydlikdən, süstlükdən uzaqlaşdırır.

**Əvvəl vaxtda qılınan namaz - axirətin dünyadan üstün olduğu qədər üstündür**

Həzrət İmam Sadiqin (ə) nurani bir buyuruşundan başa düşülür ki, əvvəl və son vaxtda qılınan namazların bir-birinə münasibəti, axirətlə dünyanın bir-birinə olan münasibəti kimidir. Necə dünya axirətin yanında çox kiçik bir şeydir, axır vaxtda qılınan namaz da əvvəl vaxtda qılınan namazın yanında o cür çox kiçik bir şeydir.

Əziz İmam (ə) buyurur: "İlk vaxt qılınan namazın, vaxtın sonu qılınan namaz üzərində olan üstünlüyü, axirətin dünya üzərinə olan üstünlüyü kimidir". Yəni bir insan namazı əvvəl vaxtda və yaxud axır vaxtda qılırsa, bunun axır vaxta nisbətdə əvvəl vaxtda qılmağının üstünlüyü, axirətin dünyaya olan üstünlüyü kimidir. Heyifdir ki, biz bu cür imkanı, fürsəti əldən verək.

Həzrət İmam Baqirdən (ə) olan buyuruşdan başa düşürük ki, vaxtında qılınan namaz çox önəmli və əhəmiyyətli, həm də daha yaxşıdır. İmam (ə) buyurur: "Bil ki, həmişə vaxtın əvvəli daha yaxşıdır. Elə isə bacardığın qədər xeyir işə tələs. Allah yanında ən sevimli iş - az da olsa, insanın daim gördüyü işdir". Misal üçün, insan davamlı olaraq namazı əvvəli vaxtda qılır. Bu, Allah hüzurunda ən sevimli işdir. Buradan başa düşülür ki, namazı əvvəl vaxtda qılmaq - həm də ən xeyirli işə tələsməkdir.

**Vaxtında qılınan namaz insanı qəflətdən ayıldır**

İmam Baqirin (ə) digər bir buyuruşundan anlaşılır ki, vaxtında qılınan namaz insanın qəflətdən ayılmasına səbəb olur. Bizim bütün müsibətlərimiz ona görədir ki, biz qəflətdə oluruq və qəflətdə olanda ağıl sönür, insanın mənəvi ruhiyyəsi üstünlük təşkil etmir. Namazı əvvəl vaxtda qılmaq həm də insanı qəflət yuxusundan ayırır. İmam Baqir (ə) buyurur: "O mömin ki, vacib namazlarına əhəmiyyət verər və onları vaxtında qılar - qafillərdən deyildir".

Əziz İmamın (ə) da buyuruşundan bizlər başa düşürük ki, o mömin ki, vacib namazlarına əhəmiyyət verər - o, qafillərdən olmaz.

Həzrət İmam Sadiq (ə) buyurur: "Hər kim namazlarını əvvəl vaxtda qılar, ölüm mələyi vədə vermişdir ki, özü (kəlmeyi-) şəhadətlərini ona təlqin edəcək və şeytanı (lən) ondan uzaqlaşdıracaq".

Namazı əvvəl vaxtda qılmaq Allah yanında bu qədər dəyərə və hörmətə layiqdir.

Buradan belə başa düşülür ki, bizim bəndəlik ruhiyyəmizi artıran ən ciddi amillərdən biri - namazı əvvəl vaxtda qılmaqdır. Çünki namazı əvvəl vaxtda qılmaq öz ardınca bir çox məsələləri gətirmiş olar. O ev ki, orada əvvəl vaxtda namaz qılınar - o evdə səfa-səmimiyyət, bərəkət olar. O ev ki, orada namaz əvvəl vaxtda qılınar - böyük də, uşaq da, kişi də, qadın da, yaşlı da, cavan da toparlana - görün bu evdə necə bir bərəkət olar. Bu evin bütün ab-havası dəyişər. Bir iş yerində ki, möminlər namazın əvvəl vaxtında bir yerdə dayanarlar - bu iş mühitində hər zaman mehribançılıq və səmimiyyət hökmranlıq edər.

Allahım, bizlərə ruhiyyəmizi artıran amilləri tanıyıb, həyata keçirməyi nəsib et!

Allahım, bizlərə namazlarımıza diqqət etməyi, əvvəl vaxtda qılmağı nəsib et!

Allahım, bizə Səni daim xatırlamaq tövfiqini əta et! Amin!

YENİ MÜSAVAT

Son səhifə

N 79 (6968) 13 aprel 2018

# Pişiklə şelfi çəkdirmək olmaz

Səudiyyə Ərəbistanda dini avtoritet Şeyx Saleh Bir Fəvzan Əl Fevzan sön dövrlər ölkəsində insanların heyvanlarla, xüsusən də pişiklərlə selfie çəkməsinə qarşı çıxıb. Əl Fevzan bu cür şəkilləri əngəlləmək üçün fətva verib. Qısa müddət öncə şahmatın qumar olduğu deyilərək, onun qadağan edildiyi Səudiyyə Ərəbistanında indi də it, pişik kimi heyvanlarla şəkil çəkdirilməsi qadağan olunub. "Əl Arabiya"nın xəbərinə görə, Səudiyyə Ərəbistanının ən yüksək dini avtoriteti olan Din Adamları Yüksək Konseyinin üzvü Şeyx Saleh Bir Fəvzan Əl-Fəvzan deyib ki, it-pişik kimi heyvanlarla şəkil çəkdirmək İslama ziddir. Hazırladığı həftəlik dini verilişdə tamaşaçıların suallarını cavablayan Əl Fəvzan deyib ki, Səudiyyə Ərəbistanında, Qərbdə olduğu kimi, ev heyvanları ilə şəkil çəkdirmək dəb halına gəlib. "Məcbur olmadıqca heyvanlarla şəkil çəkdirmək günahdır" deyən dini avtoritetin sözləri ölkədə ciddi müzakirə obyekti olub.







## Bu sousu marixuanadan hazırlayıblar

Amerikada marixuananın qanuni satışına icazə verilən ştatlarında yeni bir məhsul bazara çıxarılıb. Bu, tərkibində marixuana olan piza sousudur. Podey Pizza adını daşıyan sousun hər bankasında 300 milliqram marixuana var. Bu təamdan daddmaq istəyənlər 20 dollar ödəmək və həkim reseptini göstərməklə arzularına çata bilərlər. Sousu hazırlayan firmanın nümayəndələri bildirib ki, onun tərkibini hazırlamaq üçün xeyli əziyyət çəkiblər. Məqsəd sousun zəhərləyici tərkibə malik olmaması idi. Texnoloqlar isə deyir ki, bu tərkibdə marixuana hətta ağır çəkili insanlarda da effekt verir. Kampaniya bu dadı almaq üçün bir çox könüllünün təcrübədə iştirakından yararlanıb.

ABŞ marixuananın satışına qismən icazə verilən ölkələr sırasındadır. Bəzi ştatlarda isə marixuananın istifadəsinə tibbi məqsədlər üçün icazə verilib. O, kəskin ağrılarla müşayiət olunan xəstəliklərdə, əzələ ağrılarında, ürəkbulanmalarda, çəki azalması kimi hallarda dərman kimi istifadə oluna bilir. Bundan başqa, Kannabis onkoloji xəstələr, skelerozlar, QİÇS, epilepsiya, depressiyadan əziyyət çəkənlərin də dərmanıdır.

# İtin səsindən bezib öldürdü, ətinin isə...

Cənubi Koreyadan olan fermer qonşusunun itini öldürüb. O, bunu heyvanın çıxardığı güclü səs-küydən narahat olması ilə izah edib. Bu barədə lenta.ru saytı xəbər verib. Adı açıqlanmayan 62 yaşlı kişi bu əməlini özü etiraf edib. Deyib ki, itin davamlı hürməsi onu özündən çıxarıb. Cinayətkarın sözlərinə görə, o, itə daş atıb və it şüursuz vəziyyətə düşüb. "Bundan sonra o, heyvanı boğub və ona ət hazırlayıb" - bunu da detektiv deyib.

İt sahibinin qızı itən heyvanla bağlı axtarışlar aparıb, onun şəkli olan vərəqələri hər yerə yayıb və qonşulardan bu məsələ ilə bağlı yardım istəyib. Qatil qızı inandırıb ki, ona yardım edəcək. Hətta iti öldürəndən bir gün sonra onun sahibini ziyarət edib, onunla içki içib və sakitləşdirməyə çalışıb. Eyni zamanda fermer bütün ailəni nahara dəvət edib. Ailə naharda it ətindən yemək olacağını biləndən sonra bu dəvətdən imtina ediblər.

Cənubi Koreyada it əti yeyilməsi ənənəvi mətbəxin bir hissəsi sayılır. Beləliklə, gənc nəsil ev heyvanlarının öldürülməsinə qəti etiraz edir. Heyvan hüquqları müdafiəçilərinin səyi və aparılan ümumi mübarizənin nəticəsi olaraq, bu işi görənləri iki ilə qədər azadlıqdan məhrumetmə və pul cəzası gözləyir.





## İnsan yuxusunda necə bilik öyrənir?

Son araşdırmalara görə, insan yatanda aldığı çəki və eyni anda eşitdiyi səs bir-birinə uyğundur. Oyandıqdan sonra, sadəcə, səsi eşitdiyində isə ağlına qozu gəlir. Bundan öncə insanın hər sabah "ölümdən oyandığına" inanılırdı. Amma indi beyin yatanda da aktivdir və hətta yatanda da öyrənir deyə bilərik. Ən son elmi araşdırmalara görə, insan gün içində öyrəndiklərini yuxu zamanı beynində möhkəmləndirir. Veizmann İnstitutunda həyata keçirilən araşdırmanın nəticələrinə görə, beynin məlumatı dəyərləndirmə forması inanılmazdır. İnsan yatanda beyni işləməyə davam edir. Yuxu zamanı insan beyni keçmişdəki məlumatları daha da möhkəmləndirir. Ancaq beynin yeni məlumatları nə qədər yaxşı qavraması mövzusunda dəqiq nəticə alınmayıb.




**QOÇ** - Proseslərin ləng inkişafını nəzərə alıb istirahətə daha çox üstünlük verin. Əgər qonaqlığa dəvət alsanız, məmnuniyyətlə qəbul edin. Ümumi zəifliyinizə görə, qidanıza da yaxşıca fikir verməlisiniz.

**BUĞA** - Şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin. Nahardan sonra ağır fiziki işlərdən, nabələd adamlarla danışıqdan yayının.

**ƏKİZLƏR** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqdan sevindirici xəbər alasınız. Hər halda ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə maksimum ehtiyatlı olmalısınız.

**XƏRÇƏNG** - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Qlobal məsələlərin həllində təşəbbüskarlığı da əldən verməyin.

**ŞİR** - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, həmçinin daxili orqanlarınıza ciddi fikir verməlisiniz.

**QIZ** - Bütün göstəricilər səfərlərə çıxmaqdan məmnunluq duyacağınızı xəbər verir. Elə isə vaxtı fövtə verməyin. Bu gün fəaliyyətlə bağlı işlər üçün o qədər də uğurlu vaxt deyil.

**TƏRƏZİ** - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Uzaq yola çıxmayın.

**ƏQRƏB** - Əgər sağlıq durumunuzu, xüsusən də daxili orqanlarınızı nəzarətdə saxlaya bilsəniz, gün ərzində digər xoşagəlməzliklə rastlaşmayacaqsınız. Maddi mövqeyinizi möhkəmləndirmək üçün hərəkətə keçin.

**OXATAN** - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Vaxt tapıb yaxın dostlarınıza baş çəkin, təbiət qoynuna çıxın.

**OĞLAQ** - Saat 14-ə qədər neytarllıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir.

**SUTÖKƏN** - İntiqam hissi, gərgin situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Buna görə də yalnız özünüzə aid işlərlə məşğul olun.

**BALIQLAR** - Bu gün ümumi əhvalınızda xoş məqamlar çox olacaq. Ələlxüsus da saat 15-dən sonra bütün cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı isə ailə-sevgi münasibətlərinə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Sinoptik rekord vurdu - efirdə 33 saat qaldı

Norveçin TV2 kanalının aparıcısı Kari Qenqedal 33 saat fasiləsiz efirdə olmaqla dünya rekorduna imza atıb. Bütün bu saatlarda o, tamaşaçılara hava proqnozunu təqdim edib. Telemarafondan öncə aparıcı bunları deyib: "Bu, hər bir sinoptikin ən böyük arzusudur. Çünki sinoptiklər hər gün efirdə cəmi 2.5 dəqiqə görünə bilirlər".

Qenqedal öz verilişini Oslonun Domkirkeplassen meydanındakı şüşə studiyasında aparıb. Dünya rekordunun müəyyənləşməsi ilə bağlı qaydalara uyğun olaraq, teleaparıcıya hər 60 dəqiqəlik efir işindən sonra 5 dəqiqəlik fasilə icazəsi verilib. Uğurlu rekorddan sonra Qenqedal pivə içməyə gedəcəyini bəyan edib: "Ancaq bu yolla öz uğurumu qeyd edə bilərəm".

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100